012 449 55 55
info@ultra.az
www.ultra.az

# “ULTRA TECHNOLOGIES” ŞİRKƏTİNİN

# Korporativ Etika Məcəlləsi

Verilmə tarixi: 02.05.2016
Baxış №. 003
Redaksiya tarixi : 18.11.2019

Təsdiq edən:

________________________________________
Abdul Qurbanov
Baş direktor

**Mündəricat**

1 GİRİŞ: TƏTBİQİ HAQQINDA ..................................................................................................... 3
Biznes fəaliyyətini qanuni və etik davranış qaydalarına əməl etməklə həyata keçirməyimiz haqqında ............... 3
Qaydalara əməl olunmaması faktının sizə məlum olduğu və ya bu barədə şübhələriniz olduğu zaman ............. 5
2. Korporativ Etika Siyasətləri .................................................................................................... 7
1. Biznes Fəaliyyətinin Qanuni və Etik Davraniş Qaydalarina Əməl etməklə Həyata keçirilməsi haqqında ......... 7
2. Qeyri-qanuni təcrübələrlə mübarizə ...................................................................................... 8
Rüşvətxorluq və Korrupsiya ........................................................................................................9
Dövlət Qulluqçuları ilə iş ...........................................................................................................9
Dövlət Orqanları və QHT-lər ilə iş ..............................................................................................10
Hədiyyələr və Əyləncə Tədbirləri ...............................................................................................11
Rəsmi prosedurların sadələşdirilməsi müqabilində ödənişlər .......................................................11
Biznes tərəfdaşları ilə iş və ədalətli rəqabət qaydalarına əməl edilməsi .........................................12
Maraqların Ziddiyyəti ................................................................................................................14
İnsayder Əməliyyatları (insayder ticarəti) ....................................................................................15
Çirkli Pulların Yuyulması ............................................................................................................16
3. Məlumatların, Fərdi Məlumatların və Məxfi Məlumatların Təhlükəsizliyinin Təmin edilməsi Siyasəti ...........16
4. Korporativ Aktivlərin Mühafizəsinin Təmin edilməsi Siyasəti ............................................................. 18
5. Elektron Resurslardan İstifadəyə dair Siyasət ........................................................................19
6. Mühasibat uçotunun aparılmasına dair siyasət ........................................................................ 20
7. Korporativ Mədəniyyət – İşçilərə Hörmət ................................................................................ 20
8. Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi ........................................................ 22

## ƏHATƏ DAİRƏSİ

**Bu Siyasət aşağıda qeyd edilənlərə şamil edilir:**

1. bütün rəhbər heyyəti, vəzifəli şəxslər, işçilər və "ULTRA TECHNOLOGIES" şirkəti tərəfindən nəzarət edilən istənilən digər şəxslər ("ULTRA TECHNOLOGIES" şirkətinin işçi heyəti);

2. bütün hüquqi şəxslər və biznes subyektləri də daxil olmaqla, "ULTRA TECHNOLOGIES" şirkətinin bütün əməliyyatları, həmçinin "ULTRA TECHNOLOGIES" şirkətinin siyasət və prosedurları üzərində nəzarəti həyata keçirə bildiyi "ULTRA TECHNOLOGIES" şirkətinin birgə cəmiyyətləri; və

3. məsləhətçilər, podratçılar, tədarükçülər, agentlər və ya vasitəçilər də daxil olmaqla, "ULTRA TECHNOLOGIES" şirkətinin adından hər hansı formada hərəkət edən istənilən digər fiziki və ya hüquqi şəxs.

## GİRİŞ: TƏTBİQİ HAQQINDA

### Biznes fəaliyyətini qanuni və etik davranış qaydalarına əməl etməklə həyata keçirməyimiz haqqında

**Məcəllədən istifadə**

"ULTRA TECHNOLOGIES" şirkətinin korporativ etika siyasətləri bütün işçilərə və "ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət edən üçüncü tərəflərə şamil edilir. Bu siyasətlər Şirkətin biznes fəaliyyətinin həyata keçirilməsi prosesi ilə bağlı öhdəliklərin başa düşülməsi üçün zəruri olan məlumatı özündə əks etdirir.

Siyasətlər aşağıdakı formatda təqdim edilmişdir: (1) siyasətin tərifi, (2) siyasətin izahı, (3) əməl edilməsinin təmin edilməsi üçün qaçınmalı situasiyalara nümunələr. Bu rəhbər prinsiplər həmçinin məsləhətləşməli şəxslər və Məcəllənin pozulması haqqında məlumat vermə metodları haqqında məlumatı özündə əks etdirir.

**Məcəllənin tələbləri**

Korporativ etika siyasətləri riayətin təmin edilməsinin aparıcı aspektlərinə ardıcıl yanaşmanın tətbiq edilməsinə kömək edir. İşçilər və direktorlar işlərinə tətbiq edilən qanunların və bu Məcəllənin tələblərini başa düşməli və qanunların və bu siyasətlərin hər hansı güman edilən pozuntuları barədə məlumat verməlidirlər.

"ULTRA TECHNOLOGIES" şirkətinin korporativ etika siyasətləri Şirkətin bütün işçilərinə şamil edilir. Bu siyasətlər "ULTRA TECHNOLOGIES" şirkətinin biznes fəaliyyətinin həyata keçirilməsi ilə bağlı bütün situasiyalara tətbiq edilir.

**“ULTRA TECHNOLOGIES” şirkətinin işçilərinə olan tələblər**

**“ULTRA TECHNOLOGIES” şirkətinin hər bir işçisi:**

- Ondan nə etməyin tələb olunduğunu və bu tələblərə riayətin təmin edilməsi proqramının necə tətbiq olunduğu barədə bilmək üçün bu rəhbər prinsipləri oxumalıdır.
- Bütün korporativ etika siyasətlərində təsvir edilən məsələləri bilməlidir.

- İş öhdəlikləri ilə bağlı bütün korporativ etika siyasətlərini aydın şəkildə başa düşməlidir. İşçilərdən bütün təfərrüatları yadda saxlamaları tələb olunmur, lakin onlar əlavə məlumata ehtiyacları olarsa, nə zaman və hara müraciət etməli olduqlarını anlamaq üçün işlərinə tətbiq edilən rəhbər prinsiplər haqqında kifayət dərəcədə biliyə malik olmalıdırlar.
- Korporativ etika siyasətləri və ya qanunvericiliyin və onların tələblərinin tətbiqedilən olub-olmadığının müəyyən edilməsi üçün köməyə ehtiyacları olduğu zaman bu Məcəllə və Korrupsiya əleyhinə Proqram və Korporativ Etika Qrupunun (Riayətin təmin edilməsi üzrə Məsul Şəxslər) digər siyasətləri də daxil olmaqla, Şirkətin bütün mümkün resurslarından istifadə etməlidir.
- Bu Məcəllənin "Pozuntu ilə bağlı şübhəli hallar və ya pozuntu faktları barədə məlumat vermə" Bölməsində, həmçinin Şirkətin Pozulmalar barədə məlumat verilməsinə dair Siyasətində qeyd edilən pozuntular barədə müxtəlif məlumat vermə metodlarını bilməlidir.
- Korporativ Etika Məcəlləsinin pozulması ilə bağlı hər hansı pozuntu faktı və ya şübhələr barədə anonim qaydada məlumat vermə imkanı haqqında bilməlidir.
- Bilməlidir ki, Şirkət qaydaların pozulması ilə bağlı şübhələri barədə məlumat verən və ya araşdırmada yardımçı olan şəxsə münasibətdə hər hansı formada qisas xarakterli cavab tədbiri görülməsinə yol vermir.
- Bilməlidir ki, Şirkət işçilərindən hər hansı qüvvədə olan hüquqi tələblərin və Korporativ Etika Məcəlləsinin pozulması barədə məlumat vermələrini gözləyir.
- Bu proqramın yerinə yetirilməsində yardımçı olmalı və hər hansı tətbiq edilən hüquqi tələblərin və Korporativ Etika Məcəlləsinin mümkün pozulmalarının araşdırılmasında Şirkətə yardım etməlidir.
- Şirkətin tələbi ilə, işçinin Şirkətin korporativ etika siyasətlərini oxuyub başa düşdüyünü və bu siyasətlərin və qanunvericiliyin tələblərinə riayət etməyi üzərinə götürdüyünü təsdiq etmək üçün ərizə yazıb imzalamalıdır.
- Yaddaşlarını təzələmək və ən son yenilənmiş siyasətlərdən xəbərdar olmaq üçün "ULTRA TECHNOLOGIES" şirkətinin Korrupsiya Əleyhinə Proqramının siyasətlərini mütəmadi olaraq nəzərdən keçirməlidirlər.

**"ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət edən üçüncü tərəflərə olan tələblər**

"ULTRA TECHNOLOGIES" şirkətinin bütün biznes subyektləri məsləhətçilər və ya podratçılar kimi Şirkətin adından hərəkət edən bütün üçüncü tərəflərdən "ULTRA TECHNOLOGIES" şirkətinin bütün tətbiq edilən siyasətlərinə əməl etməyi tələb etməlidir.

"ULTRA TECHNOLOGIES" şirkətinin direktorları və işçiləri aşağıda qeyd edilənləri yerinə yetirməlidirlər:

- Üçüncü tərəflərdən "ULTRA TECHNOLOGIES" şirkətinin müvafiq siyasətlərinə əməl etməyi tələb etmək və üçüncü tərəflərin bu siyasətlərin tələblərini başa düşməsini təmin etmək üçün onlara təlim keçmək.
- Üçüncü tərəflərin fəaliyyətlərinə nəzarət etmək və hər hansı üçüncü tərəf "ULTRA TECHNOLOGIES" şirkətinin siyasətlərinə əməl etmək üzrə razılaşmanı pozarsa, "ULTRA TECHNOLOGIES" şirkəti tərəfindən bu cür üçüncü tərəflərin xidmətlərindən istifadənin məhdudlaşdırılması da daxil olmaqla, müvafiq tədbirlər görmək.

**"ULTRA TECHNOLOGIES" şirkətinin rəhbərliyinə olan tələblər**

"ULTRA TECHNOLOGIES" şirkətinin bütün rəhbər heyəti işçilər və "ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət edən üçüncü tərəflər ilə bağlı əlavə məsuliyyət daşıyırlar.

Baş direktor və rəhbər heyətin digər üzvləri də daxil olmaqla, "ULTRA TECHNOLOGIES" şirkətinin bütün rəhbər heyəti aşağıda qeyd edilənləri yerinə yetirməlidir:

- Hər bir şəxsin öz səlahiyyətləri çərçivəsində qanunvericiliyin və "ULTRA TECHNOLOGIES" şirkətinin tələblərini başa düşməsini və əməl etməsini təmin etmək.
- Elə bir iş mühiti yaratmalıdırlar ki, işçilər və "ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət edən üçüncü tərəflər öz direktorları və rəhbərlərinin "ULTRA TECHNOLOGIES" şirkətinin siyasətlərinin dəyərliliyinə inandıqlarını və onlara əməl etdiklərini sadəcə bəyan etmədiklərini, həqiqətən də əməl etdiklərini anlasınlar.
- Hər zaman nümunəvi davranış nümayiş etdirmək. Bütün direktorlar və rəhbərlər öz davranışları ilə nümunə olmalı və digərlərini yüksək davranış standartlarına riayət etməyə sövq etməlidirlər.
- Qanunvericiliyin və "ULTRA TECHNOLOGIES" şirkətinin siyasətlərinin pozulması riskinə məruz qalan sahələrə xüsusi diqqət yetirməklə, qanunvericiliyin və "ULTRA TECHNOLOGIES" şirkətinin siyasətlərinin pozulmasının qarşısını almaq üçün tədbirlər görmək, həmçinin bu tələblərə əməl edilməsi ilə bağlı zəruri təlimlər keçmək.
- Qanunvericiliyin və "ULTRA TECHNOLOGIES" şirkətinin siyasətlərinin pozulması faktlarını aşkar etmək və məlumat vermək.
- Pozulma faktlarının olduğu hallarda operativ tədbirlər görmək və pozuntulara yol verilməsi ilə nəticələnən biznes proseslərindəki çatışmazlıqları aradan qaldırmaq.
- Pozuntu ilə bağlı şübhələri barədə məlumat verən və ya Şirkət tərəfindən aparılan araşdırmada yardım edən istənilən şəxsi ona qarşı qisas xarakterli cavab tədbirinin görülməsindən qorumaq.

**Siyasətlərə riayətin təmin olunması**

Məcəllədə nəzərdə tutulan davranış qaydalarının tətbiqinə Korrupsiya Əleyhinə Proqramda qeyd edilən proqramlar, tədbirlər və proseslərin həyata keçirilməsi vasitəsilə nail olunur.

Şirkətdə bir necə rəhbərdən ibarət olan, təsis edilmiş orqan - Korporativ Etika Qrupu (KEQ), Korrupsiya Əleyhinə Proqramın tətbiqi və həyata keçirilməsinə üzrə məsul olan Qrup Rəhbəri (bundan sonra Korporativ Etika Qrupunun Rəhbəri adlanacaq) tərəfindən idarə edilir. Qrup "ULTRA TECHNOLOGIES" şirkətinin Baş Direktoru qarşısında cavabdehdir.

Məcəllənin tətbiqinin idarə edilməsi prosesləri və metodları ilə bağlı təfərrüatlar "ULTRA TECHNOLOGIES" şirkətinin Korrupsiya Əleyhinə Proqramında əks olunmuşdur.

**Korporativ etika siyasətlərinə əməl olunmaması faktının sizə məlum olduğu və ya bu barədə şübhələriniz olduğu zaman**

"ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət edən bütün şəxslər "ULTRA TECHNOLOGIES" şirkətinin korporativ etika siyasətlərinə əməl etmək və şirkətin dəyərlərini dəstəkləmək üzrə öhdəlik daşıyırlar. "ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət edən bütün şəxslərdən həmçinin "ULTRA TECHNOLOGIES" şirkətinin siyasətlərinin və ya qanunvericiliyin mümkün pozulması halları ilə bağlı şübhələri barədə vaxtında məlumat vermələri tələb olunur. Həmçinin xırda və asanlıqla aradan qaldırıla bilən problemlərin operativ həlli də vacibdir, çünkü həll edilməmiş xirda problemlər ciddi problemlərə böyüdüyü zaman, onlar ziyan, cərimə və "ULTRA TECHNOLOGIES" şirkətinin imicinə xələl gəlməsi kmi mənfi amillər ilə nəticələnə bilər.

**Suallarınıza harada cavab tapa bilərsiniz**

Yazılı formada olan siyasətlər tətbiq edilə bildiyi bütün mümkün situasiyaları və halları əhatə edə bilməz. "ULTRA TECHNOLOGIES" şirkəti öz korporativ etika siyasətləri haqqında əlavə məlumat ilə bağlı istinad etmək üçün bir neçə məlumat mənbəyi təklif edir.

Əgər işçinin öz hərəkətlərinin Məcəlləni və ya Korrupsiya Əleyhinə Proqramın müddəalarını pozub-pozmaması ilə bağlı şübhələri vardırsa, o, Şirkətin korporativ (daxili) intranet şəbəkəsində və ya kütləvi internet saytlarında ətraflı şəkildə dərc edilmiş siyasət və prosedurlara istinad etməli, qaynar xətt (www.ultraintegrity.com) vasitəsilə suallarını ünvanlamalı, yaxud məsləhət üçün bilavasitə rəhbərinə və ya yuxarı rəhbərinə, Korporativ Etika Qrupunun Məsul Şəxsləri, yaxud Şirkətin Hüquqi şöbəsinə müraciət etməlidir.

**Şirkətin siyasətlərinin güman edilən pozulması barədə məlumat verilməsi**

Hətta ən yaxşı Korporativ Etika Məcəlləsi və ya koporativ etika siyasətlərinə riayətin təmin edilməsi proqramına malik olan istənilən şirkət korporativ etika siyasətlərinə əməl olunmaması problemləri ilə üzləşə bilər. Bu cür problemlərin böyüyərək ciddi problemə çevrilməmiş tez zamanda müəyyən edilməsi və aradan qaldırılması yaxşı şirkət olmağın əlamətidir. "ULTRA TECHNOLOGIES" şirkəti üçün mümkün pozulmaların erkən aşkar edilməsinin ən yaxşı metodu öz işçilərini dəstəkləməkdir.

Təcrübə və postsovet əlaqələr mədəniyyəti göstərdi ki, çox insanlar həmkarlarının qaydalara uyğun olmayan davranışları ilə bağlı şübhələri barədə məlumat vermək istəmirlər. Bu könülsüzlüyü aradan qaldırmaq üçün, "ULTRA TECHNOLOGIES" şirkəti hər hansı pozuntu və ya şübhələr barədə məlumat verən istənilən şəxs ilə bağlı əməkdaşların qaydaların pozulması barədə məlumat verdiklərinə görə təqib olunmaqdan müdafiəsi siyasətini dəstəkləyir. Pozuntu ilə bağlı şübhələri barədə düzgün qaydada məlumat verən işçilər və "ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət edən üçüncü tərəflər düzgün hərəkət etmiş olurlar, çünki qanunvericiliyin və "ULTRA TECHNOLOGIES" şirkətinin siyasətlərinin hər bir pozulması faktı işçiləri, eləcə də "ULTRA TECHNOLOGIES" şirkətinin və öz biznes fəaliyyətini həyata keçirdiyi şirkətləri, müştəriləri və birlikləri təhlükə altında qoyur.

İşçi və ya tərəfdaş öz narahatlıqlarını bildirmək və ya qaydaların pozulması barədə məlumat vermək üçün bir neçə üsuldan birindən istifadə edə bilər. Bu məqsədlə o:

- Məlumat vermək və ya vəziyyəti aydınlaşdırmaq üçün həm şifahi, həm də yazılı formada bilavasitə rəhbəri və ya yuxarı rəhbərinə müraciət edə bilər.
- Qaynar xəttə müraciət edə bilər: elektron resurs ünvanı: www.ultraintegrity.com;
- Korporativ Etika Qrupunun Rəhbəri və ya Qrupun Məsul Şəxsləri ilə əlaqə saxlaya bilər
- Şirkətin Hüquq Şöbəsinin Rəhbəri ilə əlaqə saxlaya bilər
- İşçilər və tərəfdaşlar anonim e-poçt ünvanlarından integrity@ultra.az e-poçt ünvanına öz məlumatlarını anonim qaydada (əgər bunu zəruri hesab edərlərsə) göndərə bilərlər
- Şirkətin HR rəhbəri ilə əlaqə saxlamaq (əgər situasiya rəhbərlik tərəfindən işçiyə qarşı hörmətsizlik və ya ayrı-seçkiliyi, ədalətsizliyi, yaxud işçilər arasında şəxsi münaqişəni özündə əks etdirirsə).

Məlumat vermə metodları ilə bağlı daha ətraflı məlumat üçün "ULTRA TECHNOLOGIES" şirkətinin **Pozulmalar barədə məlumat vermə Siyasətinə** istinad edin.

Qaydaların pozulması ilə bağlı verilən məlumat operativ araşdırmanın aparılması və müvafiq aradan qaldırma tədbirlərinin görülməsinin təmin edilməsi üçün pozulma barədə kifayətedici həcmdə məlumatı özündə əks etdirməlidir.

**"ULTRA TECHNOLOGIES" şirkətinin verilən məlumatlara cavabı**

Qaydaların pozulması ilə bağlı güman edilən pozulmalar baradə verilən məlumatın qəbul edilməsindən sonra, Etika Qrupunun Rəhbəri qəbul edilən məlumatı araşdırmaq, Korporativ Etika Məcəlləsinin pozulmasının qarşısının alınması üçün müvafiq tədbirlər görmək və məlumatı təqdim edən şəxsi nəticələr barədə məlumatlandırmaq oz ohdəsinə götürür. Əgər bu cür işçi araşdırma nəticəsində öz şübhələrinin aradan qaldırılmadığını və tədbirlər görülmədiyini hesab edərsə, yuxarıda qeyd ediləndən daha üst instansiyaya müraciət etməlidir. Lakin prioritet təşkil edən birincisi Korporativ Etika Qrupunun Rəhbərinə müraciət etməkdir.

Verilən məlumatlar Şirkət tərəfindən lazımi araşdırmanın zəruriliyinə uyğun olaraq mümkün olduğu qədər məxfi saxlanılmalıdır. Məcəllənin istənilən formada pozulması mülki və ya cinayət işinin açılıb-açılmamasından asılı olmayaraq, işdən azad edilmə də daxil olmaqla, inzibati tədbirin görülməsi ilə nəticələnə bilər.

Şirkət qanunvericiliyin və ya Şirkətin siyasətlərinin hər hansı potensial pozulması faktı barədə dürüstlük və vicdanlılıq prinsipi əsasında məlumat verdiyinə görə heç bir şəxsə qarşı cavab tədbiri (qisas) tətbiq etməməli və istənilən cavab tədbirini (qisası) qadağan etməlidir. Hər hansı şəxsi bilavasitə və ya dolayısı ilə təqib edən, yaxud digərlərini hər hansı şəxsi təqib etməyə çağıran istənilən şəxsə qarşı işdən azad edilmə də daxil olmaqla, inzibati tədbir görüləcəkdir.

Korporativ etika və korrupsiya sahəsində güman edilən pozulmalar aparılan operativ auditlərin nəticələri, yaxud tərəfdaşlardan və ya işçilərdən qəbul edilmiş məlumatların əsasında aşkar oluna bilər. Bu cür şübhələrin təsdiq edilməsi üçün Şirkət daxili araşdırma aparmalıdır.

Şirkət bu siyasətlərə zidd olan bütün aşkar edilmiş pozuntular ilə bağlı Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinənvə hər bir situasiyanın konkret hallarına əsaslanmaqla cavab tədbiri görməlidir.

# KORPORATİV ETİKA SİYASƏTLƏRİ

## 1. BİZNES FƏALİYYƏTİNİN QANUNİ VƏ ETİK DAVRANIŞ QAYDALARINA ƏMƏL ETMƏKLƏ HƏYATA KEÇİRİLMƏSİ HAQQINDA

"ULTRA TECHNOLOGIES" şirkətinin Korporativ Etika Məcəlləsinin əsas elementi aşağıdakı qaydanın qəbul edilməsi və əməl edilməsidir: "Biz biznes fəaliyyətini fəaliyyətimizin bütün aspektlərində bütün işçilər tərəfindən qanuni və etik davranış qaydalarına əməl edilməklə həyata keçirməliyik".

Bu bölmədə əks olunan siyasətlər "ULTRA TECHNOLOGIES" şirkətinin işçiləri və "ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət edən digər şəxslərin qanunvericiliyin tələblərinə və korporativ etika standartlarına əməl etməli olması ilə bağlı tələbi müəyyən edir.

**Siyasətin izahı**

"ULTRA TECHNOLOGIES" şirkəti öz biznes fəaliyyətinin həyata keçirilməsində bütün fəaliyyət aspektlərinə tətbiq oluna bilən Korporativ Etika Məcəlləsindən istifadə edir. Bu universal siyasətlər biznes fəaliyyətinin qanuni və etik davranış qaydalara əməl etməklə həyata keçirilməsi üçün əsası təmin edir. Şirkətin bütün işçiləri və "ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət edən digər şəxslərdən bütün qanunlara və "ULTRA TECHNOLOGIES" şirkətinin biznes fəaliyyətinin həyata keçirilməsi qaydalarına ciddi əməl etmələri tələb olunur.

Beynəlxalq layihələrdə iştirak edən və beynəlxalq şirkət və təşkilatlar arasında tərəfdaş və müştərilərə malik Azərbaycan şirkəti olan "ULTRA TECHNOLOGIES" şirkəti antikorrupsiya qanunları da daxil olmaqla, yerli və beynəlxalq qanunlara tabedir. Ona görə də, işçilər yalnız "ULTRA TECHNOLOGIES" şirkətinin korporativ etika siyasətlərinə deyil, həm də yaşayış və iş yerində qüvvədə olan bütün tətbiqedilən qanunların tələblərinə əməl etməlidirlər.

**Cəza**

Qanunu və ya "ULTRA TECHNOLOGIES" şirkətinin korporativ etika siyasətlərini pozan bütün işçilərə qarşı işdən azad edilmə də daxil olmaqla, müvafiq cəza tətbiq edilməlidir. Cəza həmçinin aşağıdakı işçilərə də tətbiq edilməlidir:

- Məlum olan pozuntular barədə məlumat verməyən və hər hansı şübhələri olduğu zaman hüquqi məsləhət üçün KEQ Rəhbəri və Hüquq Şöbəsinə müraciət etməyən
- Tövsiyə ilə ziddiyyət təşkil edən tədbirlər görən
- Güman edilən pozuntu barədə məlumat verən işçiyə qarşı qisas xarakterli cavab tədbiri görən.

"ULTRA TECHNOLOGIES" şirkəti bütün aşkar edilən pozntulara və bu siyasətlər ilə ziddiyyət təşkil edən digər hərəkətlərə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi və hər bir situasiyanın konkret hallarına əsaslanmaqla cavab verməlidir.

İşçilər və "ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət edən və Şirkətin siyasətlərini pozan digər şəxslər həmçinin qanunu da pozaraq özlərini və Şirkəti bütün dünya boyunca milli və yerli qanunlara uyğun olaraq ciddi cərimə olunma, həbs cəzası və mülki məhkəmə icraatı vasitəsilə dəyən ziyanın əvəzinin ödənilməsi riskinə məruz qoya bilərlər.

**Biznes fəaliyyətinin etik davranış qaydalarına əməl olunmaqla həyata keçirilməsi üzrə rəhbər prinsiplər**

Əgər siz bu Məcəllənin əhatə etmədiyi situasiya və ya problem ilə rastlaşarsınızsa, sizə və "ULTRA TECHNOLOGIES" şirkətinə müsbət təsir göstərəcək düzgün və etik qərar qəbul etməlisiniz. Bununla yanaşı, sizin hərəkətləriniz korporativ etika qaydalarına əməl edilməsi, dürüstlük və vicdanlılıq, digər şəxslərə lazımi hörmət, həmçinin şəxsi məsuliyyət hissi kimi şirkətin əsas dəyərləri ilə tənzimlənməlidir.

Etik qərarın qəbulu alternativ davranış formalarının qiymətləndirilməsini və aşağıdakı korporativ standartlar nəzərə alınmaqla diqqətlə nəzərdən keçirilməsini tələb edir:

- Şirkətin fəaliyyətinin bütün sferalarında qanunun aliliyini qəbul etmək
- Korporativ etika qaydalarına əməl etmək
- İşiniz və şəxsi həyatınız arasında maraqların ziddiyyətindən qaçınmaq
- Dürüst rəqabətə istiqamətlənmək
- Korrupsiya və rüşvətxorluq ilə mübarizə aparmaq
- Şəxsiyyətlərə hörmət etmək və dəyər vermək, həmçinin yüksək səviyyəli korporativ mədəniyyətə meyillənmək
- Sosial cəhətdən məsuliyyətli olmaq

**Etik qərarların qəbul edilməsi**

Yalnız aşağıdakı suallara "Bəli" cavabı verildiyi təqdirdə "ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət etmək:

- Bu hərəkət qanunvericiliyə və "ULTRA TECHNOLOGIES" şirkətinin işgüzar etika qaydalarına əməl olunması kimi korporativ dəyərlərinə uyğundurmu?
- Bu hərəkət ictimai araşdırmanın predmeti olmayacaqmı?
- Bu hərəkət "ULTRA TECHNOLOGIES" şirkətinin etik şirkət kimi işgüzar nüfuzunu qoruyacaqmı?

Əgər siz üç sualın hamısına "Bəli" cavabı verə bilmirsinizsə, lakin yenə də təklif edilən hərəkətin qanuni və etik olduğunu düşünürsünüzsə, o zaman bunu Korporativ Etika Qrupunun Rəhbəri ilə müzakirə etməlisiniz, çünki hərəkətinizin sizin və ya "ULTRA TECHNOLOGIES" şirkətinin maraqlarına uyğun olmaması riski vardır.

## 2. QEYRİ-QANUNİ TƏCRÜBƏLƏRLƏ MÜBARİZƏ

Aşağıdakı təriflər Siyasətlərə tətbiq edilməlidir:

**a) Dələduzluq təcrübəsi** hər hansı maliyyə və ya digər üstünlük əldə etmək, yaxud hər hansı öhdəlikdən yayınmaq, qaydaları pozana və ya əlaqədar tərəfə fayda vermək məqsədilə hər hansı tərəfin qəsdən yanıldılması və ya yanıldılmasına cəhd edilməsi olan faktların təhrif edilməsi də daxil olmaqla, hər hansı hərəkət və ya hərəkətsizlikdir.

**b) Korrupsiya təcrübəsi** digər tərəfin hərəkətlərinə qeyri-qanuni təsir etmək məqsədilə bilavasitə və ya dolayısı ilə dəyərli nə isə təklif etmək, vermək, qəbul etmək və ya istəmək, yaxud qeyd edilənlərə cəhd etməkdir

**c) Gizli razılaşma təcrübəsi** iki tərəf arasında digər tərəfin hərəkətlərinə qeyri-qanuni qaydada təsir etmək də daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, qeyri-qanuni məqsədə nail olmaq üçün nəzərdə tutulmuş razılaşmadır.

**d) Məcbur etmə məqsədilə ziyan vurma təcrübəsi** hər hansı tərəfin hərəkətlərinə qeyri-qanuni təsir etmək məqsədilə, digər tərəfə və ya əmlaka bilavasitə və ya dolayısı ilə ziyan vurmaq və ya zədələmək, yaxud ziyan vurmaq və ya zədələmək ilə hədələməkdir.

Siyasətdə bu təcrübələr birlikdə “dələduzluq və korrupsiya” adlanacaqdır.

"Ultra Technologies" şirkətinin heyəti, həmçinin məsləhətçilər, podratçılar, tədarükçülər, agentlər və vasitəçilər də daxil olmaqla, "Ultra Technologies" şirkətinin adından hərəkət edən istənilən digər şəxs "Ultra Technologies" şirkətinin fəaliyyəti boyunca heç bir halda hər hansı dələduzluq və/ya korrupsiya ilə məşğul olmamaq, göz yummamaq və ya imkan verməmək, yaxud bu cür təəssürat yaratmamaq öhdəliklərinə əməl etməlidirlər.

### Rüşvətxorluq və Korrupsiya

***Biz istər özəl, istərsə də dövlət sektorunda heç bir formada rüşvətxorluq və ya korrupsiya ilə məşğul olmayacağıq.*** Biznes fəaliyyətimizin bütün aspektlərində "ULTRA TECHNOLOGIES" şirkətinin işçilərindən **Korrupsiya və Rüşvətxorluğa qarşı Mübarizə Siyasətinə** əməl etmək tələb olunur. Bu o deməkdir ki, biz heç bir zaman rüşvət, vəzifə səlahiyyətlərinin icrası müqabilində təşəkkür əlaməti olaraq pul mükafatı və ya hər hansı qanunsuz ödəniş təklif etməməli, tələb etməməli, vəd verməməli, verməməli və ya qəbul etməməliyik. Biz öz digər biznes tərəfdaşlarımızın da etik və qanuni məsuliyyətlərini yerinə yetirmələri üçün onların siyasətlərinə və hərəkətlərinə təsir göstərməyə çalışacağıq. "ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət edən bütün biznes tərəfdaşları rüşvətxorluq və korrupsiya ilə mübarizə haqqında tətbiqedilən qanunlara əməl etməlidirlər.

"ULTRA TECHNOLOGIES" şirkəti Avropada və Birləşmiş Ştatlarda tədarükçülərə və biznes tərəfdaşlarına malik olduğu və beynəlxalq maliyyə qurumları tərəfindən maliyyələşdirilən milli layihələrdə iştirak etdiyi üçün, beynəlxalq standartlara və qanunlara əməl etməlidir. "ULTRA TECHNOLOGIES" şirkəti üçün bizim biznes fəaliyyətimizə təsir edən bütün tətbiqedilən qanunlar və normativ tələblərə cavab vermək son dərəcə zəruridir.

Geniş şəkildə qəbul edilmişdir ki, müəssisələrdə antikorrupsiya sistemlərinin qurulması üzrə ən yaxşı dünya təcrübəsi 2 qanun ilə dəstəklənir:

1) ABŞ-ın dövlət qulluqçuları tərəfindən korrupsiyanı qadağan edən "Xaricdə Korrupsiya ilə Mübarizə" Qanunu.

2) Böyük Britaniyanın həm dövlət qulluqçuları, həm də də fərdi şəxslərə korrupsiyanı və dövlət orqanlarında rəsmi prosedurların sadələşdirilməsi müqabilində ödənişləri qadağan edən 2010-cu il tarixli "Rüşvətxorluqla Mübarizə" Qanunu.

"ULTRA TECHNOLOGIES" şirkətinin korrupsiya və rüşvətxorluğun qarşısının alınması ilə bağlı korporativ siyasətləri yuxarıda qeyd edilənlər, həmçinin Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizə haqqında qüvvədə olan qanunları da daxil olmaqla, korrupsiyaya qarşı mübarizə haqqında qüvvədə olan qanunlara uyğundur.

Şirkətin siyasətlərinə uyğun olaraq, bütün işçilərdən və "ULTRA TECHNOLOGIES" şirkətini təmsil edən və şirkətin adından hərəkət edən tərəfdaşlardan bu qanun və siyasətlərə əməl etmək tələb olunur.

"ULTRA TECHNOLOGIES" şirkəti potensial korrupsiya hərəkətləri və əlaqəli risklər ilə bağlı öz şöbələrinə nəzarət etməli və yoxlamalı, eləcə də mühasibat uçotlarının lazımi qaydada aparıldığından əmin olmalıdır.

## Dövlət Qulluqçuları ilə iş

Dövlət qulluqçusu aşağıda qeyd edilənlərin adından hərəkət edən işçi, vəzifəli şəxs və ya istənilən fərdi şəxsdir: hər hansı hökumət idarəsi, şöbə və ya istənilən səviyyəli agentlik; ictimai beynəlxalq təşkilat; siyasi partiya; yaxud tam şəkildə və ya qismən dövlətə məxsus və yaxud dövlətin nəzarətində olan hər hansı şirkət. Dövlət qulluqçularına həmçinin siyasi vəzifələrə namizədlər də daxil ola bilər.

Dövlət qulluqçularına münasibətdə hədiyyə, ianə, əyləncə tədbiri, yol xərclərinin ödənilməsi və ya rəsmi prosedurların sadələşdirilməsi müqabilində pul mükafatının təklif, yaxud təqdim edilməsi kimi müəyyən hərəkətlər antikorrupsiya qanunvericiliyinin pozulması hesab oluna bilər.

Kommersiya məqsədli QHT-lərdə də korrupsiya "ULTRA TECHNOLOGIES" şirktinin korporativ davranış siyasətinə ziddir.

“Rüşvət”-in tərifi. Rüşvət - dövlət qulluqçusuna və ya digər şəxslərə biznesi əldə etmək və ya saxlamaq, yaxud da qeyri-qanuni üstünlük qazanmaq niyyəti ilə bilavasitə və ya dolayısı ilə hədiyyə, ödəniş və ya dəyərli əşya təklif etmək, müzakirə etmək, vermək və ya verməyi vəd etməkdir. Bu termin həmçinin dövlət orqanlarında rəsmi prosedurların asanlaşdırılmasında kömək müqabilində ödənişləri də nəzərdə tutur.

Ümumi anlamda qeyri-qanuni üstünlük şirkətin aşkar hüququnun çatmadığı nəyi isə ifadə edir, məsələn, dövlət agentliyi və ya kommersiya müəssisəsinin "ULTRA TECHNOLOGIES" şirkətinin məhsul və həllərinin satın alınması qərarına, məhsul spesifikasiyalarının üstünlük əsasında seçiminə, müqavilələrin bağlanmasına, fəaliyyət üçün icazələrin, münasib məhkəmə qərarının verilməsinə və ya vergi mübahisələrinin həllinə qeyri-qanuni yolla təsir edilməsi.

**İşçilər aşağıdakı qaydalara əməl etməlidirlər**:

- Rüşvət təklif edilməsini və ya verilməsinini nəzərdə tutan, yaxud rüşvət təklif edilməsi, icazə verilməsi və ya rüşvət verilməsi təəssüratı yaradan hərəkət və ya hərəkətsizliklərdən çəkinmək.

- Dövlət qulluqçuları ilə bilavasitə və ya dolayısı ilə biznes əlaqələrinə malik olan və ya Şirkətin adından hər hansı formada hərəkət edən şəxslərin rüşvət verilməsi və ya qəbul edilməsində iştirakının qarşısının alınması üçün müvafiq tədbirlər görmək.
- Şirkətin fəaliyyətinin antikorrupsiya qanunlarına uyğun olduğunu sübut etmək üçün sənədlərin saxlanılması, mühasibat uçotu, maliyyə uçotu və nəzarət standartları üzrə tələblərə əməl etmək.
- Şirkətin istənilən işçisi və ya Şirkətin adından hərəkət edən üçüncü şəxslər tərəfindən bu siyasətlərin bütün güman edilən pozulmaları barədə Korporativ Etika Qrupunun Rəhbərinə dərhal məlumat vermək.
- Dövlət qulluqçuları ilə münsibət dəyişərsə, məsələn ailə üzvlərindən hər hansı dövlət qulluqçusu olarsa, yaxud dövlət qulluqçusu ailə üzvünə çevrilərsə, bu barədə dərhal məlumat vermək.

**İşçilər aşağıdakı hərəkətlərə yol verməməlidirlər:**

- Dövlət qulluqçularına və ya biznes tərəfdaşlarına qeyri-qanuni üstünlük qazanmaq üçün bilavasitə və ya dolayısı ilə nağd pul, yaxud dəyərli əşya vermək.
- "ULTRA TECHNOLOGIES" şirkəti ilə biznes əlaqələri qurmağa can atan üçüncü tərəf və ya şirkətdən nağd pul və ya dəyərli əşya qəbul etmək.
- Dövlət qulluqçusu və ya biznes tərəfdaşına qərar qəbul edilməsi prosesinə təsirin olmaması üçün lazımi daxili audit və təsdiq olmadan xərci ödənilən səyahət, hədiyyə, əyləncə tədbiri, siyası yardım və xeyriyyə ödənişinə icazə vermək və ya təqdim etmək.
- Dövlət orqanlarında rəsmi prosedurların asanlaşdırılmasında yardım üçün ödəniş təklif etmək və ya buna icazə vermək.

## Dövlət Orqanları və QHT-lər ilə iş

### Siyasətin izahı

Şirkət öz işində şəffaflıq prinsipinə əsaslanır və dövlət orqanları ilə sabit, konstruktiv qarşılıqlı əlaqələr qurmağa çalışır.

Şirkət öz fəaliyyətini qanunlar və hüquqi aktlara uyğun qaydada həyata keçirir.

Şirkət dövlət orqanları, dövlət qulluqçuları və digər dövlət məmurları ilə maraqların ziddiyyəti olmadan qanuni əsaslarla konstruktiv və şəffaf qarşılıqlı əlaqələr qurmaq və saxlamağa səy göstərir.

***Siyasi fəaliyyət və İanələr***

"ULTRA TECHNOLOGIES" şirkəti partiyaların siyasi fəaliyyətlərində bilavasitə iştirak etmir, eləcə də heç bir siyasi ianələr (istər nağd pul, istərsə də əşya formasında) vermir. Bununla belə, Şirkət yalnız qüvvədə olan qanunvericiliyə zidd olmazsa, işçilərinin siyasi proseslərdə və QHT-lərdə iştirakına icazə verir, o şərtlə ki, işçi özünü "ULTRA TECHNOLOGIES" şirkətinin nümayəndəsi kimi təqdim etmir və bu cür iştirak normal iş saatlarından kənar baş verir və şirkətin resurslarından istifadə edilmir, buna görə də, bu cür iştirak siyasi və ya sosial mövqe hesab oluna bilməz.

***Xeyriyyə məqsədli ianələr və sponsorluqlar***

Şirkət qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun olaraq xeyriyyə fəaliyyətləri həyata keçirə bilər. Lakin nəzərə alınmalıdır ki, sosial proqramlara xeyriyyə ianələri vermək və ya investisiya yatırmaq, eləcə də şirkət tərəfindən təmin edilən sponsorluq, məsələn, tədbirlərə sponsorluq və ya təhsil qrantları biznesin əldə edilməsi və ya saxlanılması məqsədilə qeyri-qanuni ödənişlər etmək vasitəsi kimi istifadə edilə bilər. Korporativ Etika Qrupunun vəzifəsi xeyriyyə ianələrinin Qaydaların pozulduğuna görə fənd kimi istifadə edilmədiyini müəyyən etməkdir. Qanunla məxfiliyin tələb olunmadığı hallarda, bütün xeyriyyə ianələri geniş ictimaiyyətə açıqlanmalıdır.

***Keçmiş Dövlət Qulluqçuları ilə razılaşmalar***

Maraqların ziddiyyəti keçmiş dövlət qulluqçularının əvvəl çalışdığı dövlət təşkilatına xidmətlərin təmin edilməsi ilə məşğul olduğu zaman, xüsusilə də, onların eyni vəzifənin yerinə yetirilməsi üçün yenidən işə cəlb edildiyi zaman meydana çıxa bilər. Onların keçmiş həmkarları ilə əlaqələrindən faydalandığı hesab edilə bilər. Nəticə etibarilə, maraqların potensial və ya faktiki zidiyyətinin qarşısının alınması və ümumilikdə işə cəlb etmə prosesinin ədalətliliyinin təmin edilməsi üçün keçmiş həmkarların işə cəlb edilməsi üçün müvafiq rəqabətcil və şəffaf işə cəlbetmə prosesinin olması zəruridir.

"ULTRA TECHNOLOGIES" şirkəti dövlət qulluqçuları və ya onlar ilə əlaqəli olan şəxslərin işdən azad olunduqdan və ya təqaüdə çıxdıqdan sonra iki il ərzində işə götürülməsinə və ya onlarla ödəniş müqabilində digər razılaşmalara məhdudiyyət qoyur, hansı ki, bu halda bu cür fəaliyyətlər və ya işə götürülmə onların vəzifədə olduğu müddət ərzində malik olduğu və ya nəzarət etdiyi funksiyalar, yaxud mühüm təsir göstərə bildikləri və ya təsirlər+inin davam etdiyi funksiyalar ilə bilavasitə əlaqəli olur. Əgər Şirkət hazırkı dövlət qulluqçusu ilə əlaqəyə malik şəxsi işə götürərsə, bu şəxs həmin dövlət qulluqçusunun vəzifədə olma müddəti ərzində malik olduğu və ya nəzarət etdiyi funksiyalar və ya üzərində mühüm təsirə malik olduğu, yaxud ola biləcəyi funksiyalar ilə əlaqəli fəaliyyətləri yerinə yetirməyə bilər.

**İşçilər aşağıdakı qaydalara əməl etməlidirlər:**

- Dövlət qulluqçuları ilə münasibbətdə müəyyən edilmiş prosedura uyğun olaraq, yalnız Şirkətdəki rəsmi vəzifəni təmsil etmək.
- Hər hansı hökumət idarəsi və ya digər tənzimləyici orqanlardan sorğu qəbul edildiyi zaman əvvəlcə Korporativ Etika Qrupunun Rəhbəri ilə məsləhətləşərək Şirkət haqqında tam və doğru məlumat təqdim etmək.
- Hər hansı QHT-nin dəstəklənməsi üçün istənilən xeyriyyə ianəsi və Şirkətin resurslarından və aktivlərindən istifadə Korporativ Etika Qrupunun Rəhbəri tərəfindən yoxlanılmalı və razılaşdırılmalıdır.
- Əgər işçi dövlət orqanları ilə əlaqələrdə öz hərəkətlərinin qanuni olub-olmamasını qiymətləndirə bilmirsə, məsləhət üçün bilavasitə rəhbərinə və ya Korporativ Etika Qrupunun Rəhbərinə müraciət edə bilər.

**İşçilər aşağıdakı hərəkətləri etməməlidirlər:**

- Dövlət orqanları ilə vəzifə öhdəliklərindən kənara çıxan və ya icazə verilməyən qarşılıqlı əlaqələrə daxil olmaq.
- Hər hansı formada dövlət orqanlarının və ya onların nümayəndələrinin qərarlarına təsir göstərməyə çalışmaq.

- Araşdırmanı aparan şəxsləri, yaxud dövlət və ya tənzimləyici orqanların digər işçilərinə yalnış məlumatlar vermək.
- Dövlət və ya digər tənzimləyici orqanların səlahiyyətli işçiləri tərəfindən məlumatların, şəhadətnamələrin və ya sənədlərin toplanmasına istər bilavasitə, istərsə də dolayısı ilə maneçilik yaratmaq.
- Araşdırmanın predmeti olan sənədləri, məlumatları və ya uçot qeydlərini ləğv etmək, dəyişdirmək və məhv etmək, yaxud dövlət və ya digər tənzimləyici orqanın tələbi əsasında vermək.
- Şirkətin resursları (məsələn, e-poçt, telefon nömrəsi), öz iş saatları, Şirkətin adından siyasi və sosial proseslərdə şəxsi iştirakı üçün istifadə etmək.
- Şirkətin konkret layihələrində kommersiya üstünlüyü qazanmaq məqsədilə xeyriyyə və sponsor layihələri üçün maliyyələşməni təmin etmək.
- "ULTRA TECHNOLOGIES" şirkətində keçmiş dövlət qulluqçularını işə götürmək (onun işinin dövlət orqanları tərəfindən Şirkətin xeyrinə qərarların qəbuluna təsir göstərməsi riski).

## Hədiyyələr və Əyləncə Tədbirləri

### Siyasətin izahı

Şirkətin nüfuzu bütün layihələr və sözdələşmələr vasitəsilə və bütün işçilərin sayəsində hər gün qazanılır. Nüfuz məhsul, həll və xidmətlərin qeyd edilən keyfiyyəyə uyğunluğunun nəticəsi, müştərilərə və tərəfdaşlara verilən vədlərə sadiqliyin nəticəsi və maliyyə və işgüzar etika standartlarına əməl olunmasının nəticəsidir.

Bu Məcəllənin məqsədləri üçün "işgüzar hədiyyə" termini "işgüzar əyləncə tədbiri", həmçinin hər hansı maddi hədiyyələri özündə ehtiva edir. İşgüzar hədiyyələr daha sıx əlaqələr qurmaq üçün istifadə edilən ümumi üsuldur və bu cür işgüzar təcrübələr müəyyən məhdudiyyətlər olmaqla qəbuledilən və qanunidir. "ULTRA TECHNOLOGIES" şirkətinin siyasətlərinə uyğun olaraq, işçilər aşağıdakı şərtlərə əməl etməklə "ULTRA TECHNOLOGIES" şirkətində öz işləri ilə bağlı müvafiq işgüzar hədiyyələr verə və qəbul edə bilərlər (Daha ətraflı təfərrüatlar üçün baxın: "Hədiyyələr və Əyləncə Tədbiri Siyasəti"):

- İşgüzar hədiyyəni qəbul edənlər və verənlər sifarişçi şirkətlər və ya tərəfdaşlar (qeyri-dövlət) olmalıdır.
- Hədiyyələr müəyyən hədd çərçivəsində dəyərə malik olmalıdır.
- Hədiyyələrin verilməsi və ya qəbul edilməsi onları qəbul edənin işgüzar qərar qəbul edilməsi prosesinə təsir etməsi üçün istifadə edilməməli və digər tərəfin üzərinə məcburi və ya dolayısı ilə öhdəlik qoyulması kimi qəbul edilməməlidir.

Dövlət qulluqçularına hədiyyələrin verilməsi qadağandır. Bu cür hədiyyələr istər şəxsi vəsait, istərsə də "ULTRA TECHNOLOGIES" şirkətinin resursları hesabına ödənilməsindən asılı olmayaraq, qeyri-qanuni hərəkət hesab oluna bilər.

"ULTRA TECHNOLOGIES" şirkətinin işçisi tərəfindən təqdim və ya qəbul edilən istənilən işgüzar hədiyyə müəyyən hədd çərçivəsində dəyərə, miqdara və dövriliyə malik olmalıdır. Heç bir zaman nağd pul və ya onun ekvivalentləri formasında hədiyyələr, məsələn, hədiyyə kuponları qəbul və ya təqdim etməyin. Heç bir zaman həddindən artıq yüksək dəyərə malik hədiyyə qəbul etməyin.

**İşçilər aşağıdakı qaydalara əməl etməlidirlər**:

- Şirkətin işçiləri qanun və ya bu Məcəllə ilə qadağan edilən heç bir hədiyyəni verməməli və qəbul etməməlidirlər.
- Hər hansı işgüzar hədiyyənin qiyməti, miqdarı və dövriliyi müəyyən hədd çərçivəsində olmalı və açıqlandığı və sosial sorğu hallarında Şirkətin nüfuzuna heç bir xələl gətirməməlidir.
- Şirkətin təbliğat xarakterli korporativ simvollara malik hər hansı əşyalar formasında hədiyyələr qəbuledilləndir.
- Hədiyyənin münasibliyinin müəyyən edilməsi zamanı mədəniyyətimizdə hədiyyələrin verilməsi ilə bağlı ümumi təcrübəyə uyğunluğu, qiyməti, Şirkətdəki vəzifəniz baxımından müvafiqliyi, hədiyyəni qəbul edən tərəf ilə yaxşı işgüzar əlaqələr qurulmasına təsiri, digərlərinin bunu necə qəbul etməsi qiymətləndirilməlidir.
- Əgər siz dəyərli işgüzar hədiyyə vermək və ya qəbul etməyi planlaşdırırsınızsa, bu faktı rəhbərinizlə razılaşdırın. KEQ-in rəhbərinə də bu barədə xəbər verməniz zəruridir.

**İşçilər aşağıda qeyd edilən hərəkətləri etməməlidirlər:**

- İşgüzar hədiyyə qismində pul vermək və ya qəbul etmək
- Hər hansı dövlət qulluqçusuna müəyyən dəyərə malik hədiyyələr təqdim etmək
- Həddindən artıq bahalı və ya həddindən artıq tez-tez hədiyyələr təqdim və ya qəbul etmək.
- İşgüzar qərarın qəbul edilməsinə təsir göstərə biləcək və ya o cür təsəvvür yaradacaq hədiyyə təqdim etmək və ya qəbul etmək.
- Hədiyyələr qəbul etməyin qəbul edən tərəf üçün qaydaların pozulması hesab edildiyini bildiyiniz halda hədiyyə təklif etmək.
- Əyləncə tədbirinə (məslən, futbola biletlər) dəvət etmək və ya dəvəti qəbul etmək, hansı ki, dəvəti qəbul edən şəxs bu cür əyləncə tədbirində Şirkətin nümayəndələri tərəfindən müşayiət edilmir.

## Rəsmi prosedurların sadələşdirilməsi müqabilində ödənişlər

Ödənişin rəsmi prosedurların sadələşdirilməsi müqabilində ödənilmiş olduğunun müəyyən edilməsi çətin ola və vəziyyətdən asılı ola bilər. Ödənişin məbləği bilavasitə əhamiyyət kəsb etmir, lakin məbləğ nə qədər böyükdürsə, hüquq-mühafizə orqanları üçün qırmızı bayraq olması ehtimalı da bir o qədər böyükdür. Kiçik qeyri-rəsmi ödənişlər ölkənin qanunvericiliyinə uyğun olaraq məsuliyyət riski yarada bilər. Əgər dövlət qulluqçusu tərəfindən sizdən Şirkətin qanunla hüququnun çatdığı xidmətin gedişatının sürətləndirilməsinə kömək etmək xahiş edilmişdirsə, **Korrupsiya və Rüşvətxorluğa qarşı Mübarizə Siyasətinə** istinad etməyiniz və məsləhət üçün KEQ Rəhbərinə müraciət etməyiniz xahiş olunur. Həmçinin nəzərə alın ki, rəsmi prosedurların sadələşdirilməsi müqabilində ödənişlər bu siyasət ilə qadağan edilir.

## Biznes tərəfdaşları ilə iş və ədalətli rəqabət qaydalarına əməl edilməsi

### Siyasətin izahı

Şirkət nüfuzlu müştərilər və tədarükçülər ilə uzunmüddətli, qarşılıqlı faydalı münasibətlərin biznes fəaliyyətinin səmərəliliyi üçün mühüm şərt olduğunu hesab edir. Şirkət hər zaman öz öhdəliklərini yerinə yetirir və öz biznes

tərəfdaşlarından da öhdəliklərini yerinə yetirmələrini gözləyir. Biznes tərəfdaşları ilə münasibətlər hörmət, güvən, dürüstlük,vicdanlılıq və ədalətliyə əsaslanır.

Şirkət yaxşı nüfuza malik olan, qanuni biznes fəaliyyəti ilə məşğul olan və bu Korporativ Etika Məcəlləsində qeyd edilən prinsiplərə riayət edən biznes tərəfdaşları ilə biznes fəaliyyəti ilə məşğul olmağa səy göstərir. Bu qaydaların icrasının təmin edilməsi üçün KEQ biznes tərəfdaşlarının yüksək işgüzar etika standartlarına əməl etmələrinə nəzarət etməlidir.

Şirkət öz biznes tərəfdaşlarının da həmçinin yüksək işgüzar etika standartlarına əməl etmələrinin, Şirkətin siyasət və prosedurlarına uyğun hərəkət etməyə hazır olduqlarını nümayiş etdirmələrinin və Ümumi prinsip və dəyərləri pozmamalarının təmin edilməsinə səy göstərir. Şirkət tərəfdaşlarına ən yüksək dəyərlərin və korporativ etika prinsiplərinin qəbulunu məsləhət görür və təşviq edir.

Şirkət ədalətli rəqabət prinsiplərinə və bütün tətbiqedilən rəqabət qanunlarına riayət edir. Şirkət rəqibləri ilə münasibətlərini işgüzar etika və qarşılıqlı hörmət prinsipləri əsasında qurur. Rəqabətdə hər hansı fikir ayrılığı və mübahisələrin olduğu halda, Şirkət danışıqlara üstünlük verir və kompromisin əldə edilməsinə çalışır.

“Biznes tərəfdaşı” “ULTRA TECHNOLOGIES” şirkəti ilə biznes aparan hüquqi və ya fərdi şəxsdir. Buraya şirkət ilə əməkdaşlıq edən və şirkətin adından hərəkət edən aşağıdakı şəxslər və müəssisələr daxildir, lakin bunlarla məhdudlaşmır:

- Müştərilər
- Tədarükçülər
- Distribyutorlar
- Məsləhətçilər
- Podratçılar
- Rəqiblər

“ULTRA TECHNOLOGIES” şirkəti biznes tərəfdaşları ilə münasibətlərinin müntəzəm təhlilinin bir hissəsi kimi, proqramları və biznes tərəfdaşlarının fəaliyyətlərinin nəticələrini monitorinq edir.

“ULTRA TECHNOLOGIES” şirkətinin bütün tədarükçüləri və müştəriləri bizimlə biznes əlaqələrinə başlamazdan əvvəl Tərəfdaşın Etibarlılığının və Maliyyə Vəziyyətinin yoxlanılması Prosedurundan keçməlidirlər. Biz lazımi qaydada idarə olunan və təmiz şirkətlərlə biznes apardığımızdan əmin olmalıyıq. Xahiş olunur, Tərəfdaşın Etibarlılığının və Maliyyə Vəziyyətinin yoxlanılması Proseduruna istinad edəsiniz və bu məsələ ilə bağlı məsləhət üçün Korporativ Etika Qrupuna müraciət edəsiniz.

Şirkət öz biznes müqaviləsinə işgüzar etika qaydalarına əməl edilməsi haqqında paraqraf əlavə etmək hüququna malikdir. Müqaviləni imzalamaqla, tərəfdaş bizim işgüzar etika standarlarımıza əməl edir.

**İşçilər aşağıdakı qaydalara əməl etməlidirlər:**

- Şirkətin öz biznes tərəfdaşları qarşısında tələblərini dürüstlük və vicdanlılıq prinsipləri əsasında yerinə yetirməsinin təmin edilməsi üçün bütün mümkün səyləri göstərin.
- Tərəfdaşın Etibarlılığının və Maliyyə Vəziyyətinin yoxlanılması Prosedurunu diqqətlə öyrənin.
- Biznes tərəfdaşı ilə əlaqəyə daxil olmazdan əvvəl və mütəmadi olaraq lazımi qaydada sənədləşdirilmiş risk-əsaslı Etibarlılığının və Maliyyə Vəziyyətinin yoxlanılması

Prosedurunu həyata keçirin (qeydiyyatda olmayan hər hansı benefisiar sahiblərin və ya digər benefisiarların olub-olmadığını müəyyən edin).

- Biznes tərəfdaşlarımız tərəfindən işgüzar etika qaydalarına qarşılıqlı riayət edilməsinə çalışın. Əgər biznes tərəfdaşları işgüzar etika qaydalarına riayətin təmin edilməsi proqramına malik deyildirlərsə, həmin tərəfdaşları öz fəaliyyətlərinə və mövcud vəziyyətə istinad etməklə, etibarlı və effektiv proqram qəbul etməyə təşviq etməlisiniz.
- Tərəfdaşı işgüzar etika qaydalarına riayətin təmin edilməsi proqramı haqqında məlumatlandırın: Riayətin Təmin edilməsi proqramımız haqqında bütün biznes tərəfdaşlarımızı məlumatlandırın və onların adından həyata keçirilən bütün fəaliyyətlərin bu proqrama uyğun olmasını gözlədiyimizi aydın şəkildə bildirin.
- Xahiş olunur, mütləq vizit kartınıza və e-poçt imzanıza bizim korporativ etika qaydalarının internet-resurs ünvanını (www.ultraintegrity.com ) əlavə edəsiniz.
- Şirkətin nüfuzunu dəyərləndirin və işgüzr etika haqqında qanunlara və qaydalara ciddi əməl edin.
- Biznes tərəfdaşları ilə iş zamanı yalnız Şirkətin mənafeyindən çıxış edin.
- Biznes tərəfdaşlarımız ilə tərəflərin bərabərliyi və qarşılıqlı hörmət prinsipləri əsasında əlaqələri qurun və inkişaf etdirin.
- Şirkətin öz biznes tərəfdaşları ilə əlaqələrinin bu Məcəllənin tələblərinə uyğunluğu ilə bağlı şübhələrin olduğu halda, Korporativ Etika Qrupunun Rəhbərinə müraciət edin.
- Şirkətin hər hansı işçilərindən və tərəfdaşlarından hansılarınsa arasında bu Məcəllənin tələblərinə zidd olan münasibətlərin aşkar olunduğu halda, bu barədə Korporativ Etika Qrupunun Rəhbərinə məlumat verin.
- Bütün əsas tərəfdaşlar Şirkətdə qəbul edilmiş işgüzar etika qaydalarına riayətin təmin olunması siyasətləri və Şirkətin onlara əməl edilməsinə sadiqliyi barədə məlumatlandırılmalıdırlar.

**İşçilər aşağıdakı hərəkətləri etməməlidirlər:**

- Təqdim edilən məlumatı gizlətmək və ya saxtalaşdırmaq, öz vəzifəsindən sui-istifadə etmək, Şirkətin biznes tərəfdaşı ilə bağlı maraqların ziddiyyətinin meydana çıxmasına və ya hər hansı qeyri-qanuni hərəkətə münasibətdə dözümlülük nümayiş etdirmək.
- Rəqiblər və ya biznes tərəfdaşları haqqında hər hansı xidmət və ya qeyri-ictimai xarakterli məlumatların qeyri-dürüst üsullarla əldə edilməsi və ya işçiyə səhvən çatdırılması ilə bağlı şübhələr olarsa, bu cür xidmət və məlumatlardan istifadə etmək.
- Qanunla və müqavilənin şərtlərinə uyğun olaraq tələb edildiyi hallar istisna olmaqla, biznes tərəfdaşları ilə bağlı məlumatları açıqlamaq.
- Vəzifə öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı rüşvət almaq qərəzsizliyinizə və obyektivliyinizə, vəzifə öhdəliklərinizi yerinə yetirməyinizə, həmçinin Şirkətin maraqlarına zidd olan qərarların qəbul edilməsinə təsir göstərə bilən hədiyyələr, xidmətlər, əyləncə tədbirlərinin ödənişi, pul və digər mükafat, eləcə də digər faydalar). İşçidə hədiyyənin münasibliyi və biznes əlaqələri üçün ümumi qəbul olunan olduğuna dair şübhələrin olduğu zaman, o məsləhət üçün Korporativ Etika Qrupunun Rəhbərinə müraciət etməlidir.
- Qiymətəmələgəlmə, tədarüklər və rəqabətli bazar səmərəliliyinin digər elementlərinə təsir etmək üçün digər bazar iştirakçıları ilə gizli razılaşmaya daxil olmaq.

- Qeyri-qanuni hərəkətlər ilə məşğul olduğu məlum olan və ya əsaslı şübhələrin olduğu podratçılar, tədarükçülər və digər biznes tərəfdaşları ilə əlaqədən qaçının (fövqəladə hallarda və müvafiq aradan qaldırma tədbirlərinin mövcud olduğu hallar istisna olmaqla).

## Maraqların Ziddiyyəti

### Siyasətin izahı

Şirkət personalı, dövlət qulluqçuları və digər vəzifəli şəxslər tərəfindən vəzifə səlahiyyətləri çərçivəsində özünün yaxud yaxın qohumlarının (ər-arvad, onların babaları, nənələri, valideynləri, övladlığa götürənləri, doğma və ögey qardaşları və bacıları, uşaqları, övladlığa götürülənləri, nəvələri) şəxsi və ya maddi maraqlarına toxunan yaxud toxuna bilən qərarların qəbul edilməsi və ya belə qərarların qəbulunda iştirak və ya vəzifə səlahiyyətləri ilə bağlı digər hərəkətlərin edilməsi halları maraqlar toqquşması hesab edilir.

Mümkün olduğu bütün hallarda, maraqların ziddiyyətindən qaçınmaq lazımdır. Maraqların ziddiyyətinin baş verdiyi və ya baş verə biləcəyi bütün hallarda, yolverilməz davranışın hətta meydana çıxmasından qaçınmaq üçün, bu hal Korporativ Etika Qrupunun Rəhbərinə açıqlanmalı və incəliklə idarə olunmalıdır. "ULTRA TECHNOLOGIES" şirkətinin heyətindən onların şəxsi, sosial, maliyyə və ya siyasi maraqlarının "ULTRA TECHNOLOGIES" şirkətinin işgüzar maraqları ilə toqquşduğu və ya potensial olaraq toqquşa biləcəyi fəaliyyətlərə cəlb olunmamaq tələb olunur.

Bununla belə, Şirkət razılaşır ki, işçiləri "ULTRA TECHNOLOGIES" şirkətindəki işlərindən başqa qanuni maliyyə, xeyriyyə və digər fəaliyyətlərdə iştirak etmək hüququna malikdirlər, o şərtlə ki, bu cür fəaliyyətlər ilə əlaqəli maraqların mümkün münaqişəsi barədə məlumat Baş Direktorun və Korporativ Etika Qrupunun Rəhbərinin diqqətinə çatdırılsın.

**İşçilər aşağıdakı qaydalara əməl etməlidirlər**:

- Maraqların faktiki və ya potensial münaqişəsi təhlükəsi yarada bilən bu cür kənar fəaliyyətlər, maliyyə maraqları və münasibətlərini təsdiq etməsi üçün Baş Direktora və Korporativ Etika Qrupunun Rəhbərinə müraciət etmək.
- Öz vəzifə öhdəlikləri və ya "ULTRA TECHNOLOGIES" şirkətinin maraqları ilə ziddiyyət təşkil edən və ya bu cür təsəvvür yaradan hərəkət və ya münasibətlərdən qaçınmaq.
- Xeyriyyə, təhsil və ya digər qeyri-kommersiya təşkilatında işə başlamazdan əvvəl məsləhət üçün HR Rəhbəri və ya Korporativ Etika Qrupunun Rəhbərinə müraciət edin.
- Sizin maraqlarınız ilə "ULTRA TECHNOLOGIES" şirkətinin maraqları arasında ziddiyyət yaratdığı hesab edilən istənilən məqam barədə dərhal sizin tərəfinizdən baş Direktora və Korporativ Etika Qrupunun Rəhbərinə yazılı formada bildirilməlidir.
- Digər üçüncü tərəflər üçün haqqı ödənilən işin görülməsi və ya müstəqil biznes fəaliyyəti üçün Baş Direktor tərəfindən aydın şəkildə ifadə olunan yazılı icazə verilməlidir.

**İşçilər aşağıdakı hərəkətləri etməməlidirlər:**

- "ULTRA TECHNOLOGIES" şirkətinin hər hansı fəaliyyət sahəsi ilə rəqabət təşkil edən və Şirkətdəki məsuliyyətləriniz ilə əlaqəli olmayan hər hansı işdə iştirak etmək.
- "ULTRA TECHNOLOGIES" şirkətinin rəqibi, tədarükçüsü və ya alıcısı olan şirkətin mənfəətində bilavasitə və ya dolayısı ilə paya malik olmaq.
- "ULTRA TECHNOLOGIES" şirkətinin sizin həyat yoldaşınızın və ya hər hansı digər ailə üzvünüzün çalışdığı şirkət ilə bağlı hər hansı işgüzar qərar qəbul etməsində iştirak etmək.

- Əlavə işə malik olmaq, hansı ki, bu zaman sizin ikinci işəgötürəniniz "ULTRA TECHNOLOGIES" şirkətinin bilavasitə və ya dolayısı ilə rəqibi, tədarükçüsü və ya müştərisidir.
- "ULTRA TECHNOLOGIES" şirkətində vəzifə öhdəliklərinizi adekvat qaydada yerinə yetirmək qabiliyyətinizə təsir edən əlavə iş və ya konsaltinq əlaqələrinə malik olmaq.
- "ULTRA TECHNOLOGIES" şirkətinin daxili məlumatlarından şəxsi məqsədlər və ya üçüncü tərəflərin maraqları üçün istifadə etmək.
- Məhsul və ya xidmət tədarükçülərindən, həmçinin müştərilərdən şəxsi endirimlər və ya "ULTRA TECHNOLOGIES" şirkətinin bütün işçiləri üçün əlçatan olmayan digər üstünlüklər qəbul etmək.
- "ULTRA TECHNOLOGIES" şirkətindəki işiniz ilə sıx əlaqəyə malik təmin edilən xidmətlər üçün şəxsi rüsumlar almaq. Mühazirələr, seminarlar və ya təlimlər kimi xidmətlər üçün ödənilən rüsumlarınız rəhbəriniz tərəfindən təsdiq olunmalıdır.
- "ULTRA TECHNOLOGIES" şirkətinin aralarında bilavasitə və ya dolayı subordinasiya (tabelik) olan işçiləri arasında "sıx" münasibətlər, əgər bu cür münasibətlər rəhbərin qərəzsizliyinə etimadın itirilməsi ilə nəticələnərsə.
- Yaxın qohumlarını əlaqədar biznes sahələrində işə götürmüş müştəri ilə əlaqə qurmaq;
- "ULTRA TECHNOLOGIES" şirkətinə öz maliyyə marağının olduğu tədarükçü və ya satıcı təyin etmək;
- Maraqlrın ziddiyəti təhlükəsi olduğu halda öz qohumunu "ULTRA TECHNOLOGIES" şirkətində vəzifəyə təyin etmək;
- "ULTRA TECHNOLOGIES" şirkətinin rəqibinə investisiya qoymaq və ya digər şəkildə fayda vermək;
- "ULTRA TECHNOLOGIES" şirkətinin cari və ya potensial tədarükçüsünə və ya satıcısına investisiya qoymaq.
- "ULTRA TECHNOLOGIES" şirkətinin İşçi Heyəti eyni zamanda "ULTRA TECHNOLOGIES" şirkətinin rəqibləri, müştəriləri və ya tədarükçülərindən hər hansı üçün işləməməlidir.

## İnsayder əməliyyatları (insayder ticarəti)

"ULTRA TECHNOLOGIES" şirkəti İnsayder Əməliyyatlarını (insayder ticarətini) qadağan edir. İnsayder əməliyyatı hər hansı şəxsin müəyyən qiymətli kağız ilə bağlı daxili məlumata malik olduqda həmin qiymətli kağızı satın aldığı və satdığı zaman baş verir. Daxili məlumat mühüm əhəmiyyət kəsb edən və geniş ictimaiyyətə açıqlanması nəzərdə tutulmayan məlumatdır. İnsayder əməliyyatları mühüm əhəmiyyət kəsb edən məlumatın hələ geniş ictimaiyyətə açıqlanması nəzərdə tutulmadığı zaman qeyri-qanunidir. Belə ki, xüsusi məlumata malik olan zaman ticarət etmək bu cür məlumatlara girişə malik olmayan digər investorlara qarşı ədalətsizlikdir. Beləliklə, qeyri-qanuni insayder ticarətinə geniş ictimaiyyətə açıqlanması nəzərədə tutulmayan hər hansı məlumata malik olduğunuz zaman həmin məlumatı digərlərinə ötürmək daxildir. Bununla belə, İnsayder ticarəti mühüm əhəmiyyət kəsb edən məlumatın geniş ictimaiyyətə açıqlanmış olduğu zaman qanuni hesab oluna bilər, çünki bu zaman insayder digər investorların üzərində bilavasitə üstünlüyə malik olmur.  İstənilən halda, şübhələrinizin olduğu zaman ticarət etməyin.

## Çirkli Pulların Yuyulması

"ULTRA TECHNOLOGIES" şirkəti harada fəaliyyət göstərməsindən asılı olmayaraq hər zaman çirkli pulların yuyulması ilə mübarizə haqqında qanunlara və normativ aktlara əməl edəcəkdir. Çirkli pulların yuyulması pul

vəsaitinin və ya digər əmlakın qanuni görünməsini təmin etmək üçün kriminal mənşəyinin gizlədilməsi prosesidir. Biz criminal mənşəyə malik ola bilən vəsaitlərin qəbul edilməsindən və ya bu cür pul vəsaitləri ilə bağlı hər hansı razılaşma və ya sövdələşməyə cəlb olunmaqdan qaçınmaq üçün qaydalara riayətin təmin olunması tədbirlərimiz vasitəsilə çirkli pulların yuyulması risklərini minimum həddə endirmək üçün bütün səyləri göstərəcəyik.

## 3. MƏLUMATLARIN, FƏRDİ MƏLUMATLARIN VƏ MƏXFİ MƏLUMATLARIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ SİYASƏTİ

Şirkətin məlumatları onun dəyərli aktividir. Biznes fəaliyyətinin həyata keçirilməsinin gedişatında biz həm şirkət daxilində, həm də şirkət xaricində öz həmkarlarımız ilə mütəmadi məlumat mübadiləsi aparırıq. İdeylarımızın, texnologiyalarımızın, proseslərimizin, planlarımızın və şirkətə məxsus digər məlumatların qorunması biznes fəaliyyətinin həyata keçirilməsi, rəqabət üstünlüyünün saxlanılması və konkret normativ tələblərə əməl edilməsinin mühüm elementidir.

“ULTRA TECHNOLOGIES” şirkəti insanların şəxsi həyatının toxunulmazlığına və şəxsi məlumatların məxfiliyinə hörmətlə yanaşır. Şəxsi məlumatlar yalnız biznes fəaliyyətimizin səmərəli şəkildə həyata keçirilməsi və ya qanuna riayət edilməsi məqsədləri ilə əldə edilir və saxlanılır. Şəxsi məlumatlar əldə edildikdən sonra fərdi məlumatların məxfiliyi və məlumatların mühafizəsi haqqında qüvvədə olan qanunlara uyğun olaraq saxlanılacaq və emal olunacaqdır.

Sizə “ULTRA TECHNOLOGIES” şirkəti ilə Məxfi məlumatların açıqlanmaması haqqında müqavilə imzalamaq təklif ediləcəkdir. Sizdən Məxfi məlumatların açıqlanmaması haqqında müqavilədə qeyd edilən məxfilik şərtləri ilə tanış olmaq tələb olunur. Siz şirkətimiz ilə biznes fəaliyyətinin həyata keçirilməsi prosesində sizə məlum olan bütün məlumatların məxfi olduğunu hesab etməlisiniz. Buraya “ULTRA TECHNOLOGIES” şirkətinin öz tədarükçülərindən, müştərilərindən və ya biznes tərəfdaşlarından ala biləcəyi məlumatlar daxildir. Məxfi məlumatlar yalnız etibarlı işgüzar proseslər üçün istifadə edilə və ya açıqlana bilər. Siz heç vaxt “ULTRA TECHNOLOGIES” şirkətinin əqli mülkiyyət, kommersiya sirri və şirkətin digər məxfi məlumatlarının istifadəçi forumları, bloqlar, çat bölmələri və elektron məlumat lövhələri də daxil olmaqla, sosial şəbəkələrdə müzakirə etməməlisiniz.

Məlumatların təhlükəsizliyinə Şirkətin daxili məlumatlarının, elektron resurslarının, fiziki təhlükəsizliyin qorunması, zəruri hallarda şirkətin məlumatlarına daxil olmaq və onların təsadüfən və ya qəsdən pozulmasının qarşısının alınması daxildir.

Məxfi məlumatlara konkret nümunələr: maliyyə məlumatları, texniki (konstruksiya, texnoloji) sənədlər, işçilər, müştərilər və ya tədarükçülər haqqında məlumatlar; işçilərin əmək haqqları haqqında məlumat, investisiya planları, istehsalat prosesinin təsviri; qiymətlər və mənfəət haqqında məlumat; təlimata edilən dəyişikliklər haqqında məlumat.

**Siyasətin izahı**

İşçilər və “ULTRA TECHNOLOGIES” şirkətinin adından hərəkət edən digər şəxslər Şirkətin məxfi məlumatlarını istər daxili, istərsə də xarici, qəsdən və ya təsadüfən icazəsiz açıqlanmadan qorumaq üçün məsuliyyət daşıyırlar. İşçilər və “ULTRA TECHNOLOGIES” şirkətinin adından hərəkət edən digər şəxslər aşağıdakıları bilməlidirlər:

- “ULTRA TECHNOLOGIES” şirkətinin işçilər tərəfindən yaradılan və işçilər üçün əlçatan olan məxfi məlumatlarının təsnifatı və onlar haqqında anlayış.

- “ULTRA TECHNOLOGIES” şirkətinin məlumatlarının qorunması üçün zəruri olan təhlükəsizlik tədbirləri.
- “ULTRA TECHNOLOGIES” şirkətinin məlumatları üçün saxlanılma müddəti və bu cür məlumatlarla iş üzrə müvafiq prosedur.

“ULTRA TECHNOLOGIES” şirkəti üçüncü tərəflərdən özünün bütün məlumatlarını məxfi saxlamağı tələb edir və üçüncü tərəflərin məxfi məlumatlarını məxfi saxlayır. Öz siyasətlərinə uyğun olaraq, “ULTRA TECHNOLOGIES” şirkəti bazarlar, alıcılar və “ULTRA TECHNOLOGIES” şirkətinin rəqibləri haqqında daha yaxşı təsəvvür əldə etmək üçün zəruri olan biznes və bazar məlumatlarının toplanılması və istifadəsinin yalnız qanuni və etik qaydalara uyğun vasitlərindən istifadə etməlidir. “ULTRA TECHNOLOGIES” şirkəti digər tərəfin icazəsi olmadan həmin tərəf haqqında məxfi məlumatları toplaya bilməz.

**İşçilər aşağıdakı qaydalara əməl etməlidirlər**:

- Verilənlərin saxlanması vasitəsindən (məsələn, çap olunmuş nüsxələr, elektron fayllar, e-poçt və danışıqlar) asılı olmayaraq, Şirkətin daxili məlumatlarını mühafizə etmək.
- Şirkətin məxfi məlumatlarını saxlandığı bütün müddət ərzində mühafizə etmək: yaradıldığı, yığıldığı, istifadə olunduğu, ötürüldüyü və saxlanıldığı vaxt.
- Əgər işçinin konkret bir məlumatın məxfi olub-olmadığını müəyyən etməkdə yardıma ehtiyacı vardırsa, o, Korporativ Etika Qrupunun Rəhbərinə müraciət etməlidir.
- “ULTRA TECHNOLOGIES” şirkəti daxilində elektron məlumatları yalnız vəzifə öhdəliklərini yerinə yetirmək üçün bu cür məlumatlara ehtiyacı olan şəxslərə ötürmək.
- Hər hansı məlumatı üçüncü tərəfə açıqlamazdan əvvəl bu tərəfdaş ilə məxfilik müqaviləsinin olduğundan əmin olun.
- Əgər işçiyə “ULTRA TECHNOLOGIES” şirkətinin məlumat sisteminə və ya şəbəkəsinə, yaxud da “ULTRA TECHNOLOGIES” şirkətinin məlumatlarına icazəsiz daxil olma faktı barədə məlum olarsa və ya bu barədə şübhələri olarsa, dərhal rəhbərinə, İT Şöbəsinə və KEQ-un Rəhbərinə məlumat verməlidir
- İşçilər həssas məlumatların açıqlanması üçün imzalanmış müqavilə olmadan üçüncü tərəflərin məxfi məlumatlarını qəbul etməməlidirlər.
- İstər şifahi, istərsə də yazılı formada ictimai bəyanatlar vermək və ya kütləvi informasiya vasitələrinə şərhlər bildirmək kimi “ULTRA TECHNOLOGIES” şirkətinin məsələləri ilə bağlı ictimaiyyətlə əlaqələr yalnız səlahiyyətləndirilmiş heyət və “ULTRA TECHNOLOGIES” şirkətinin PR/İctimaiyyətlə Əlaqələr üzrə Meneceri vasitəsilə həyata keçirilməlidir.
- Mətbuat və kütləvi informasiya vasitələrindən daxil olan bütün sorğular heç bir şərh bildirilmədən dərhal “ULTRA TECHNOLOGIES” şirkətinin PR/İctimaiyyətlə Əlaqələr üzrə Menecerinə yönləndirilməlidir.

**İşçilər aşağıdakı hərəkətləri etməməlidirlər:**

- “ULTRA TECHNOLOGIES” şirkətinin məxfi məlumatlarını dostları və ya ailə üzvləri ilə müzakirə etmək.
- Danışığınızın eşidilə biləcəyi ictimai yerlərdə (məsələn, lift, təyyarə və ya restoranlar) “ULTRA TECHNOLOGIES” şirkətinin məxfi məlumatları haqqında danışmaq.
- Korporativ məxfi məlumatları masanızın üzərində, Şirkətin otaqlarında, ictimai yerlərdə və s. nəzarətsiz qoyub getmək.

- Məxfi məlumatların məxfiliyinin qorunması məqsədilə bu cür məlumatları işgüzar məqsədlər üçün ehtiyac olmaqdıqda heç vaxt sosial şəbəkələrdə, ictimai yerlərdə və həmkarlarınız arasında müzakirə etməməlisiniz.
- Korporativ məxfi məlumatları müvafiq məxfilik müqaviləsi olmadan üçüncü tərəfə və ya "ULTRA TECHNOLOGIES" şirkətinin bu cür məlumatları bilmək üçün səlahiyyətinin olmadığı hər hansı işçisinə açıqlamaq.
- Üçüncü tərəfin qeyri-qanuni və ya etik qaydalara zidd vasitələrlə əldə edilən məlumatlarından istifadə etmək.

## 4. KORPORATİV AKTİVLƏRİN MÜHAFİZƏSİNİN TƏMİN EDİLMƏSİ SİYASƏTİ

ULTRA TECHNOLOGIES" şirkətinin həm maliyyə/maddi, həm də əqli mülkiyyət aktivləri çox dəyərli ola bilər və yalnız "ULTRA TECHNOLOGIES" şirkətinin məqsəd və vəzifələrinə nail olmaq üçün nəzərdə tutulmuşdur.

Bu aktivlər onların dəyərinin qorunub saxlanılması məqsədilə mühafizə olunmalıdır.

Bütün işçilər öz öhdəliklərinin yerinə yetirilməsi üçün Şirkətin aktivlərindən istifadə etmək imkanına malikdirlər. Bütün işçilər Şirkətin aktivlərinin qorunması və məqsədəuyğun istifadəsi üçün şəxsən məsuliyyət daşıyırlar. Aktivlərin strukturuna iş yerləri, avadanlıqlar, alətlər, inventar, rabitə cihazları, vəsaitlər, hesablar, proqram təminatları, məlumatlar, texnologiyalar, istehsalat sirri, verilənlər, patentlər, ticari nişanlar, müəlliflik hüquqları, zaman və Şirkətin digər resurs və əmlakları daxildir.

**Siyasətin izahı**

İşçilər Şirkətin aktivlərini boşa sərf olunma, itki, ziyan dəyməsi, israf olunma, oğurlanma, qanunsuz mənimsənilmə və ya zəbt olunmadan qorumalı və onlardan məsuliyyətlə istifadə etməlidirlər.

Heyətin üzvləri tərəfindən Şirkətin vəzifələrinin yerinə yetirilməsi üçün çəkilən hər hansı xərclər ilə bağlı olanlar da daxil olmaqla, dəqiq, etibarlı və vaxtlı-vaxtında tutulan uçot qeydləri və sənədlərin tutulması qanunla tələb olunur. Bu sənədlər Şirkət daxilində qərar qəbulu prosesi və onun maliyyə, hüquqi və hesabat verilməsi üzrə öhdəliklərinin lazımi qaydada yerinə yetirilməsi üçün zəruridir. Aktivlər üzrə hər hansı qeydlərin saxtalaşdırılması və/ya faktların təhrif edilməsi dələduzluq hesab edilə və həm fərd, həm də Şirkət üçün cinayət mısuliyyətinə cəlb edilmə ilə nəticələnə bilər.

"ULTRA TECHNOLOGIES" şirkəti üçüncü tərəflərin maddi və intellektual aktivlərinə hörmətlə yanaşır. Buna müvafiq olaraq, Şirkət öz işçilərindən və podratçılarından heç vaxt üçüncü tərəfə məxsus maddi aktivlərə qəsdən ziyan vurmamağı və ya qanunsuz olaraq mənimsəməməyi; üçüncü tərəfin etibarlı patentləri, ticari nişanları və müəlliflik hüquqlarını qəsd etmək; məxfi məlumatlara qanunsuz giriş qazanmamağı; üçüncü tərəfin məxfi məlumatlarını bu cür tərəfin icazəsi olmadan açıqlamamağı tələb edir. "ULTRA TECHNOLOGIES" şirkəti üçüncü tərəflərdən öz maddi və intellektual aktivləri ilə bağlı eyni davranışı gözləyir.

**İşçilər aşağıdakı qaydalara əməl etməlidirlər**:

- Şirkətin bütün maddi, maliyyə, məlumat xarakterli və digər aktivlərini lazımi şəkildə qorumaq.
- Şirkətin aktivlərindən yalnız nəzərdə tutulmuş məqsədlər üçün istifadə etmək.

- Şirkətin aktivlərinin boşa sərf edilməsi, itkisi, ziyan dəyməsi, israf edilməsi, oğurlanması, qanunsuz olaraq mənimsənilməsi və ya zəbt edilməsinin qarşısının alınması üçün müvafiq tədbirlər görmək.
- Sizə verilən xərcləri yalnız bu cür xərclərin korporativ siyasətlərə uyğun olduğundan əmin olduğunuz zaman təsdiq etmək hüququnuzdan istifadə etmək.
- Yalnız Şirkətin xeyrinə çəkilən xərclərin əvəzinin ödənilməsinə çalışın.
- Qüvvədə olan qanunlar, xarici standartlar və Şirkətin prosedurlarına uyğun olaraq Şirkətin aktivlərindən istifadə barədə dəqiq hesabatlar hazırlamaq, saxlamaq və təqdim etmək.
- İsatr özünüzə, istərsə də üçüncü tərəflərə məxsus əqli mülkiyyət hüquqlarınıza hörmətlə yanaşmaq və qorumaq.
- Şirkət tərəfindən məcburi olduğu müəyyən edilmiş bütün sənədləri nəzərdən keçirmək, imzalamaq və əməl etmək.
- Əgər üçüncü tərəf Şirkətin hər hansı məhsul və ya fəaliyyətlərinin üçüncü tərəflərin əqli mülkiyyət hüquqlarına xələl gətirdiyini aşkar edərsə, yaxud işçi üçüncü tərəfin Şirktin hüquqlarına xələl gətirmiş olduğunu güman edərsə, Şirkətin Korporativ Etika Qruppuna müraciət etməlidir.

**İşçilər aşağıdakı hərəkətləri etməməlidirlər:**

- "ULTRA TECHNOLOGIES" şirkətinin aktivlərindən, vəsaitlərindən və ya əmlakından qeyri-qanuni, qeyri-münasib, etik qaydalara zidd olan hər hansı məqsədlər üçün istifadə etmək.
- Müəlliflik hüququnun sahibinin əvvəlcədən icazəsi olmadan müəlliflik hüququ ilə qorunan hər hansı materialların surətini çıxarmaq, istifadə etmək və yaymaq.
- Doğru olmayan xərc məqsədləri göstərmək.
- İşçinin təsdiq edilmiş təlimatlar və standartlara uyğun olaraq müvfiq səlahiyyətə malik olduğu hallar istisna olmaqla, Şirkətin uçot qeydlərini və ya sənədlərini gizlətmək, dəyişdirmək, məhv etmək və ya digər şəkildə dəyişiklik etmək.
- Şirkətin aktivləri rəhbər heyətin təsdiqi olmadan şəxsi məqsədlər üçün istifadə edilməməlidir.

## 5. ELEKTRON RESURSLARDAN İSTİFADƏYƏ DAİR SİYASƏT

### Siyasətin izahı

"ULTRA TECHNOLOGIES" şirkətinin elektron resursları məlumat mübadiləsi üçün müxtəlif alətləri təmin edir. Elektron resurslara kompüterlər, proqram təminatları və verilənlər, telefon və şəbəkələr daxildir. Elektron resurslardan səmərəli istifadə Şirkətə uğurlu biznes fəaliyyəti həyata keçirməkdə kömək edir. "ULTRA TECHNOLOGIES" şirkətinin qaydalarına uyğun olaraq, elektron resurslar qanunu və "ULTRA TECHNOLOGIES" şirkətinin korporativ etika siyasətlərini pozacaq şəkildə istifadə edilə bilməz.

**Işçilər aşağıdakı qaydalara əməl etməlidirlər:**

- Şirkət elektron resurslarından şəxsi məqsədlər üçün yalnız məhdud və müəyyən hədd daxilində istifadə etməyə icazə verir, o şərtlə ki, bu cür istifadə normal iş prosesinə və vəzifə öhdəliklərinizin yerinə yetirilməsinə təsir etmir.
- İşçilər Şirkətin elektron resurslarından qanunvericiliyin və "ULTRA TECHNOLOGIES" şirkətinin siyasətlərini poza biləcək və işgüzar mühitdə qəbuledilməz olan məlumatlara daxil olmaq, qəbul etmək, saxlamaq, istifadə etmək və ötürmək üçün istifadə etməməlidirlər.
- Proqram təminatlarının yalnız lisenziyalaşdırılmış surətlərindən istifadə edin. Lisenziya ilə aydın ifadə olunmuş formada icazə verdiliyi hallar istisna olmaqla, lisenziyalaşdırılmış proqram təminatının surətini çıxarmayın və ya istifadə etməyin.
- Yadda saxlayın ki, Şirkət öz işçilərinin kompüterlərinə, computer şəbəkələrinə, proqram təminatlarına və məlumatlarına daxil olmaq, həmçinin bu resurslara nəzarət etmək hüququnu özündə saxlayır.

**İşçilər aşağıdakı hərəkətləri etməməlidirlər:**

- Elektron resurslardan hər hansı qanunu və ya işgüzar etika siyasətlərini pozacaq formada istifadə etmək.
- Elektron resurslardan normal iş fəaliyyətinizə mane olmayan məhdud və müəyyən hədd daxilində istifadə edildiyi hallar istisna olmaqla, şəxsi məqsədləriniz üçün istifadə etməyin.
- Elektron resurslardan siyasi, sosial və dini fəaliyyətlər üçün istifadə etmək.

## 6. MÜHASİBAT UÇOTUNUN APARILMASINA DAİR SİYASƏT

**Siyasətin izahı**

Şirkət milli və beynəlxalq qanunvericiliyə və işgüzar etika siyasətlərində əks olunan prinsiplərə, qüvvədə olan uçot standartlarına, qanunlara və normativ tələblərə ciddi əməl etməklə, mühasibat uçotu və hesabat sənədlərində qeyd edilən verilənlərin dəqiq, doğru və tam olmasını təmin etməlidir.

Şirkətin siyasətlərinə uyğun olaraq, "ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət edən digər şəxslər maliyyə məlumatlarının doğruluğu, tamlığı və aktuallığına, məlumatların açıqlanmasının ardıcıllığı və qeydlərin aparılmasına görə məsuliyyət daşıyırlar. Şirkət maliyyə əməliyyatlarının aparılması və hesabatı sistemlərinin müvafiqliyinə nəzarət etməklə bu siyasətə əməl olunmasını təmin etməlidir.

**İşçilər aşağıdakı qaydalara əməl etməlidirlər**:

- İşçilər Şirkətin maliyyə hesabatlarında öz sövdələşmələri barədə vaxtlı-vaxtında və düzgün şəkildə açıqlanmanın təmin edilməsi üçün dəqiq, tam və doğru qeydlərin aparılması üçün məsuliyyət daşıyırlar.
- Şirkət uçot və hesabat üzrə müvafiq prosedurlara malikdir.
- Şirkət daxili norma və qaydalara uyğun olaraq lazımi qaydada uçot və sənədlərin saxlanmasını təmin edir.
- Daxili hesabatlarda və press-relizlərdə və ya hər hansı dövlət orqanlarına təqdim edilən sənədlərdə istifadə edilənhər hansı digər hesabatlarda tam, dəqiq, düzgün, vaxtlı-vaxtında və aydın maliyyə və digər məlumatları təmin etmək.
- İşçilər Şirkətin maliyyə göstəricilərinin auditini və ya qiymətləndirilməsini həyata keçirən daxili və xarici auditorlarına tam dəstək göstərməli və doğru olan maliyyə məlumatlarını təmin etməlidirlər.

- Əgər işçiyə uçot və hesabat prinsiplərinin pozulması məlum olarsa, yaxud hər hansı hərəkətin qanuniliyi ilə bağlı şübhələri olarsa, həmin işçi bu cür məlumatları Korporativ Etika Qrupunun Rəhbərinə çatdırmalıdır.

**İşçilər aşağıdakı hərəkətləri etməməlidirlər:**

- Aktual göstəriciləri özündə əks etdirməyən maliyyə hesabatları təqdim etmək.
- Qeyri-dəqiq maliyyə qeydləri, məsələn, şişirdilmiş səyahət xərcləri və qalma yeri xərcləri, xərclərə dair yanıldıcı məlumat təqdim etmək.
- Təsdiq prosedurlarini pozmaq və ya yayınmaq.
- Şirkətin auditorlarına təsir edə, yanılda və ya aldada bilən bilavasitə və ya dolayı tədbirlər görmək.
- Qeydlərin saxtalaşdırılması və ya faktların təhrif edilməsinə heç bir zaman bəraət qazandırıla bilməz. "ULTRA TECHNOLOGIES" şirkəti heç bir formada dələduzluğa münasibətdə dözümlülük nümayiş etdirmir.
- "ULTRA TECHNOLOGIES" şirkətindən qüvvədə olan qanunvericiliyə uyğun olaraq aparılmasının tələb olunduğu, yaxud qarşıda duran və ya gözlənilən araşdırmalar və ya mübahisələr ilə əlaqəli ola bildiyi hallarda, hər hansı qeydlərin (istər yazılı, istərsə də elektron formada) icazəsiz məhv edilməsi və ya saxtalaşdırılması.

Daha ətraflı məlumat üçün bax: ""ULTRA TECHNOLOGIES" şirkətinin Mühasibat uçotunun aparılmasına dair siyasəti".

## 7. KORPORATİV MƏDƏNİYYƏT – İŞÇİLƏRƏ HÖRMƏT

Şirkətin işçi heyəti onun əsas və ən dəyərli aktividir. Şirkət işçilərə ən yaxşı peşəkar və şəxsi keyfiyyətlərini nümayiş etdirməkdə kömək edəcək mühit yaratmağa çalışır.

Şirkət işçilərə tam peşəkar və yaradıcı potensiallarını inkişaf etdirmələri üçün bərabər imkanlar yaratmaqla onların bərabərliyini təmin edir. Şirkət cins, yaş, milliyyət, din, siyasi məslək və s. görə heç bir ayrı-seçkiliyə münasibətdə dözümlülük nümayiş etdirmir.

Şirkət böyük nəticələrə nail olmağa qabil olan işçiləri dəyərləndirir, təşəbbüsləri mükafatlandırır, istedadlı şəxsləri cəlb etməyə və saxlamağa çalışır, şəxsi həyatın toxunulmazlığına hörmətlə yanaşır, sağlamlıq və təhlükəsizliyi qoruyur. Şirkət işçilərindən onun qaydalarına və məqsədlərinə əməl etməyi və onun dəyərlərinə sadiq olmağı tələb edir.

İsətnilən səviyyəli rəhbər şəxslər Şirkətdə xüsusi rol oynayır. Şirkət öz rəhbər şəxslərindən nümunəvi davranış gözləyir, hər bir rəhbər yalnız burada təsvir edilən bütün siyasətlərin yerinə yetirilməsini və əməl edilməsini təmin etməməli, həm də öz etika qaydalarına uyğun davranışı ilə nümunə olmalıdır.

"ULTRA TECHNOLOGIES" şirkətinin İşçi Heyətindən peşəkar səviyyədə davranış nümayiş etdirməyi tələb edir. Biz işçilərə, podratçılara, tədarükçülərə, müştərilərə və ya işlədiyimiz istənilən digər şəxslərə münasibətdə heç bir formada təhqir və ya təngəgətirmə xarakterli davranışlara dözümlülük nümayiş etdirmirik. Qısnama, təngəgətirmə, irqçilik ifadələri, ayrı-seçkilik davranışı, nalayiq sözlər, şifahi aqressiya, fiziki aqressiya və ya

hədələyici davranış, təhqir və seksual qısnama davranış qaydalarınln inzibati tədbir görülməsini tələb edən ciddi şəkildə pozulmasıdır.

**Siyasətin izahı**

Şirkətin siyasətlərinə uyğun olaraq, işçilər və "ULTRA TECHNOLOGIES" şirkətinin adından hərəkət edən digər şəxslər hörmətlə davranış hüququna malikdirlər.

Hörmətlə davranış ədalətli və peşəkar davranış, istedad, nəticələr və potensialı qiymətləndirmək qabiliyyətini ifadə edir. İş yerində hörmət yalnız qanunlara riayət edilməsi deyil, həm də hər hansı qeyri-düzgün davranış, təngəgətirmə və ya yaş, sağlamlıq imkanlarının məhdudluğu, ailə vəziyyəti, etnik mənşə, din, cins, siyasi məslək və iş təcrübəsinə görə ayrı-seçkiliyin qarşısının alınmasıdır.

Şirkət rəhbər şəxslərindən nümunəvi davranış nümayiş etdirməyi gözləyir. Hər bir rəhbər öz etik qaydalara uyğun davranışı ilə işçilərə nümunə olmalı və digərlərinə yaxşı davranış nümayiş göstərməkdə kömək etməlidir.

Rəhbər şəxslər və tabe işçilər arasında münasibətlər hörmət, nizam-intizam və vəzifə öhdəliklərinin dürüstlük və vicdanlılıq prinsipləri əsasında yerinə yetirilməsinə əsaslanmalıdır.

**İşçilər aşağıdakı qaydalara əməl etməlidirlər**:

- Hər bir işçi ilə onun etnik mənsubiyyətindən, cinsindən, yaşından, siyasi məsləyindən və ya təcrübəsindən asılı olmayaraq hörmətlə davranmaq.
- Yadda saxlayın ki, hərəkətlər nüfuza təsir edir və Şirkətin nüfuzuna təsir göstərə bilər. Davranışlarınızın digərlərində sizin haqqınızda necə təsəvvür yaratdığı barədə düşünün. Əgər bir şəxs sizin barənizdə şikayətlənmirsə, bu o demək deyildir ki, o sizin davranışınızdan razıdır.
- İşdəki çatışmazlıqlar ilə bağlı istənilən konstruktiv rəyə müsbət cavab verin. Başa düşün ki, iş problemləri ilə bağlı rəhbərlik tərəfindən görülən korrektəedici tədbirlər zəruridir və işin keyfiyyətinə adekvat cavabdır.
- Əgər kimsə sizi təhqir edərsə, ona söyləyin ki, bu bir daha baş verməməlidir. Əgər siz kimi isə təhqir etmisinizsə, həmin şəxsin vəziyyətini anlamağa çalışın , üzr istəyin və gələcəkdə bu cür situasiyadan qaçının.
- Əgər sizə bu qaydaları poza biləcək hər hansı davarnış barədə məlum olarsa, bu barədə Qrup Rəhbərinizə və ya HR Şöbəsinə bildirməyiniz xahiş olunur.
- Daim peşəkarlıq səviyyənizi artırın, yeni bacarıqlar öyrənin və zəruri peşəkar bilik əldə edin.
- İş məhsuldarlığınızı təkmilləşdirməyə səy göstərin.
- Komandada mehriban psixoloji mühit yaratmağa və saxlamağa çalışın.
- İşinizdə daim yeni imkanlar axtarın, Şirkətin işçiləri ilə təcrübələrinizi bölüşün və ən yaxşı təcrübələr tətbiq edin.
- Arzu edilən məqsədlərə nail olmaq üçün komanda işində səriştənizi inkişaf etdirin. Özünüzün və komandanın fəaliyyətinin nəticələri üçün şəxsi məsuliyyət daşıyın və zəruri olarsa, komanda üzvlərinə kömək edin.
- Əgər siz komandada düzgün mövqe seçə bilmirsinizsə, yaxud konkret situasiyada necə davranmalı olduğunuzu bilmirsinizsə, Qrup Rəhbərinizə və ya HR Şöbəsinə müraciət edin.

**İşçilər aşağıdakı hərəkətləri etməməlidirlər:**

- Qeyri-peşəkar davranış və ya hörmətsizliyə, yaxud təngəgətirmə və ya qisas məqsədi ilə edilən və ya bu cür nəticələnən hər hansı hərəkətlərə yol vermək.
- Digər işçilərə qarşı onların etnik mənsubiyyəti, dini, cinsi, yaşı, ailə vəziyyəti və ya siyasi baxışlarına görə ayrı-seçkilik edilməsinə münasibətdə dözümlülük nümayiş etdirmək. Seksual qısnama (seksual təqib) da daxil olmaqla, istənilən növ təngəgətirmə qadağandır.
- İşçilərlə aqressiv və ya təhqiredici formada davranmaq.
- Bu siyasətin mümkün pozuntusu barədə məlumat verən şəxsə qarşı qisas xarakterli cavab tədbiri görmək.
- Digər şəxsə onun davranışının təhqiredici olduğunu hörmətlə söyləmək imkanınından istifadə etməmək.
- Bu siyasətin pozulması faktları haqqında məlumat verməmək.

## 8. SAĞLAMLIQ, ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ

**Siyasətin izahı**

“ULTRA TECHNOLOGIES” şirkəti öz prosesləri, əmək məhsulları, iş yerləri və işçi heyəti ilə bağlı Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsinə (SƏTƏMM) əməl edir. “ULTRA TECHNOLOGIES” şirkəti öz işçilərini sağlamlığa təhlükələrdən azad təhlükəsiz iş yerləri ilə təmin edir və istehsalat proseslərinin ətraf mühitə təsirini minimum həddə endirməyə çalışır.

İşçilər və “ULTRA TECHNOLOGIES” şirkətinin adından hərəkət edən digər şəxslər SƏTƏMM sahəsindəki bütün qanunlar və qaydalar, həmçinin Şirkətin hər hansı müvafiq siyasət və standartları barədə məlumatlı olmalı və onlara əməl etməlidirlər.

Şirkətinin rəhbərliyi də həmçinin işçilərinin bu cür qanunlar və qaydalar haqqında məlumatlı olmalarını təmin etməlidir. SƏTƏMM üzrə mütəxəssislər bu məsələlər ilə bağlı yardım və konsultasiyaları təmin etməlidirlər. Aşağıdakılara istinad etməyiniz xahiş olunur: Ofis işçiləri üçün iş yerində təhlüksizlik üzrə təlimatlar; Texniki heyət üçün iş yerində təhlükəsizlik təlimatı; Quraşdırma işləri üçün təhlükəsizlik təlimatları; Təhlükəsizlik üzrə Giriş Təlimatları – bu sənədləri Şirkətimizin HR şöbəsindən əldə etmək olar.

Bütün iş yerləri Azərbaycan Respublikasının Əmək Məcəlləsinin normalarına cavab verir, Şirkətimizin HR şöbəsində mövcud iş yerlərinin Pasport sertikatlaşdırmasına istinad etməyiniz xahiş olunur.

Biz ətraf mühitin mühafizəsinin qayğısına qalırıq və biznes fəaliyyətimizi həyata kçeirdiyimiz icmaların hüquqlarına hörmətlə yanaşırıq. “ULTRA TECHNOLOGIES” şirkətinin işçilərindən müəyyən edilmiş fərdi mühafizə vasitələrindən istifadə etmək və təhlükəsizlik qaydalarına əməl etmək tələb olunur. Biz “ULTRA TECHNOLOGIES” şirkətinin işçilərini təhlükəsizlik ilə bağlı narahatlıqlara səbəb olan məsələləri qaldırmağa çağırır və onlardan bu məsələlər barədə şəffaf qaydada məlumat vermələrini gözləyirik. İnsidentlərin ört-basdır edilməsi Korporativ Etika Qaydalarının pozulması hesab edilir.

Biz uşaq əməyi, məcburi əmək, həmçinin fiziki cəzadan istifadə etmədiyimizə zəmanət veririk. Biz narkotik maddələrin istifadəsi və paylanmasının qəti əleyhinəyik və ofislərimiz daxilində spirtli içki və siqaretdən istifadəyə icazə vermirik.

**İşçilər aşağıdakı qaydalara əməl etməlidirlər**:

- SƏTƏMM ilə bağlı bütün qüvvədə olan qanunlara, normative təlimatlara və “ULTRA TECHNOLOGIES” şirkətinin siyasətlərinə əməl etmək.
- Gündəlik vəzifə öhdəliklərinizi yerinə yetirdiyiniz və idarəçilik qərarları qəbul etdiyiniz zaman SƏTƏMM siyasətlərinə dair biliklərinizi tətbiq edin.
- Texnoloji prosesləri təhlükəsiz şəkildə yerinə yetirmək.
- Planlaşdırılan təlim proqramlarında iştirak edərək bu sahələrdəki biliyinizi artırın.
- Ətraf mühit üçün təhlükəli və ya zərərli olduğunu güman etdiyiniz şərait və situasiyalar barədə narahatlıqlarınızı rəhbərinizlə bölüşün və həyat və ya sağlamlıq üçün təhlükəli şəraitdə yerinə yetirilən hər hansı əməliyyatları dayandırın.
- Həmkarlarınız, müştərilər və ya tərəfdaşlar tərəfindən SƏTƏMM ilə bağlı bildirilən rəyləri cavablandırın.
- Təkrar emal və digər metodlar vasitəsilə təbii ehtiyatları qorumaq.
- Enerjidən səmərəli istifadəni artırmaq və ondan məqsədəuyğun istifadəni təmin etmək.

**İşçilər aşağıdakıları etməməlidirlər:**

- SƏTƏMM (Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi) ilə bağlı qanunları və Şirkətin daxili qaydalarını pozmaq.
- Hər hansı ekoloji təhlükələr və qəzalar haqqında məlumat verməmək.
- Çirklənmənin qarşısının alınması və tullantıların azaldılması imkanlarından istifadə etməmək.
- Enerjidən sənərəli istifadənin təkmilləşdirilməsi imkanlarından istifadə etməmək.
- İş yerinə təhlükəli əməliyyatlar aparmaq və təhlükəli şəraitdə iş görmək.
- İş yerində spirtli içki qəbul etmək, siqaret çəkmək və digər narkotik maddələrdən istifadə etmək.
- “ULTRA TECHNOLOGIES” şirkətinin SƏTƏMM ilə əlaqəli dəyərlərini bölüşməyən podratçılar və tədarükçülər ilə əməkdaşlıq etmək.

## 9. ƏLAVƏ MƏLUMAT ÜÇÜN

Bu Siyasət ilə bağlı hər hansı suallarınızın olduğu zaman Korporativ Etika Qrupunun Rəhbərinə müraciət etməyiniz xahiş olunur. Siyasətə vaxtaşırı olaraq dəyişiklik edilə və yenilənə bilər. Siyasətin ən son versiyasını www.ultraintegrity.com elektron saytından əldə etmək olar. Bu Siyasətə dəyişikliklər yalnız “ULTRA TECHNOLOGIES” şirkətinin Baş Direktoru tərəfindən edilə bilər.

Korporativ Etika Məcəlləsi: www.ultraintegrity.com